Симах Шејда

Simax Şeyda

# Мəндəн истəр һəр көзəл јар

ГƏЗƏЛЛƏР

# Mənden istər hər gözəl yar

QƏZƏLLƏR

Симах Шејда

# Мәндән истәр һәр көзәл јар

## *Гәзәлләр*



Бакы 2007

Редакторлар:
Зибеjдə Вəфалы,
Теjмур Симахоғлу

Симах Шеjда
"Мəндəн истəр һəр көзəл jар"
Гəзəллəр
Бакы, "Араз" нəшриjjаты
2007, 216 сəһ.

С $\frac{4915273245}{050\text{-}2007}$ 2007

© "Араз" 2007

Simax Şeyda

# *Məndən istər hər gözəl yar*

## Qəzəllər



Bakı 2007.

**Redaktorlar:**
**Zibeydə Vəfalı,**
**Teymur Simaxoğlu**

Simax Şeyda
"Məndən istər hər gözəl yar"
Qəzəllər
Bakı, "Araz" nəşriyyatı
2007, 216 səh.

S $\frac{4915273245}{050\text{-}2007}$ 2007

© "Araz" 2007

## Шаирлик таледир

*Талејин хош олсун, Симах гардаш!*

Алманијанын Мүнһен шәһәринин Алфред Шмид күчәсиндәки јашыл күкнар ағачларынын әһатә етдији көз охшајан тикилиләрин бириндә 5 сајлы бинада, Азәрбајҹан вә дағ јәһудиләринин дилиндә көзәл әсәрләр јазан вә дүнјанын мүхтәлиф өлкәләриндә јахшы танынан нәғмәкар шаиримиз јашајыр. Бу-Симах Шејдадыр!

Шејда онун тәхәллүсүдүр. Ады, сој ады Симах Јушвајевдир. Әллинҹи илин әввәлләриндә биз гәдим Кәнҹәдә таныш оланда о, тәзә-тәзә ушаг шеирләри јазырды. О гәдәр сәлис ахыҹы дили вар иди ки, охујан кими әзбәрләнирди. Бәзән јени ајаг ачан, диши мырых ушагларын өз дилиндә јазыр, әслиндә онларын көнлүнү охшајырды.

*...Көј дәнизи далғалар,*
*Неһрә кими чалхалар.*
*...Нефт дашлары узагды,*
*Јол кедирик нә вахтды.*

Нәһајәт, онун илк "Тәјјарә" китабы нәшр олунду. Һәм танынды, һәм дә севилмәјә башланды. Симах Шејда өзү Оғуз рајонунда доғулуб. 1940-ҹы илдә дөрд јашында икән валидејнләри илә бирликдә Кәнҹәјә көчүб. Кәнҹәли ушагларла гајнајыб-гарышыб, онларын ләһҹәсиндә данышыб, шеирләр јазыб.

Он сәккиз јашында севиб-сечдији Мәрјәм илә аилә һәјаты гуруб вә хошбәхт өмүр сүрмәкдә-

дир.

Инди оғланлары, гызлары, он нәфәрдән артыг нәвә - нәтичәләри тоjда-дүjүндә, ад күнләриндә Симах Шеjда илә Мәрjәм ханымын башына топлашыр, хош әһвал-руһиjjә, әсл баjрам шәнлиjи jарадырлар.

Јушваjевләр аиләси дүнjанын һәр jанына сәпәләниб. Нечә-нечә өлкәдән мәктуб, телеграм алырлар. Өвладларынын бәзиләри Бакыда, Москвада, Америкада, Исраилдә аилә гуруб jашаjырлар. Амма о күн олмур ки, евләринә зәнк чалыб валидеjнләриндән һал-әһвал тутмасынлар.

Шаирин Алманиjадакы евинә харичи өлкәләрдән дә чохлу мүсафир, мәктуб, телеграм кәлир: -ондан мәсләһәт алырлар, поезиjа симпозиумларына, әдәби мүсабигәләрә дәвәт едирләр. Алманиjанын мүхтәлиф шәһәрләриндә jашаjан азәрбаjчанлылар ону өз шәнликләринә гонаг чағырыр, мәчлисин башында она jер верирләр.

Исраил Дағ Јәһудиләри Јазычылар Бирлиjинин сәдри Елдар Куршумов гәләм досту С.Шеjданы һаглы олараг “Ики халгын шаири” адландырыр. Јәһуди вә Азәрбаjчан халгларынын әдәби әлагәләри саһәсиндә Симах Шеjданын хидмәтләри әвәзсиздир. О Исраилә көчдүкдән сонра һәр ики дилдә “Ширванлы гыз” вә “Сор мәни” адлы әсәрләрини нәшр етдириб. Үмумиjjәтлә шаирин он үч китабынын jарысындан чоху Азәрбаjчандан бәһс едир. О доғулдуғу, jашадығы торпағы, халгы һеч вахт унутмур, әксинә һарада jашамағындан асылы олмаjараг Одлар Јурдунун әдәби елчиси функсиjасындан мәмнунлуг дуjур. Бу нәчиб хидмәтләрә көрә мән Азәрбаjчан зиjалылары

адындан гәләм гардашыма миннәтдарлығымы билдирирәм. Онда һәр шеј тәбии алыныр - Гарабағ јарасындан үрәк ағрысы илә данышмасы да, јәһуди - Азәрбајҹан достлуғундан, гәдим әлагәләримиздән һәрарәтлә бәһс етмәси дә.

Бакы Дөвләт Университетини битирдикдән сонра Симах Шеједа Кәнҹәдә вә Бакыда мүхтәлиф дөвләт вәзифәләриндә ишләјиб. Азәрбајҹан мәдәнијјәтинин, халг театрларынын инкишафы јолунда күҹүнү әсиркәмәјиб. Онун илһамынын ән гајнар чағларында јаздығы мәнзум пјесләр, нағыллар, поемалар, нәшр етдирдији китаблар, еләҹә дә публисист мәгаләләр Азәрбајҹан һәјатыны ләјагәтлә тәмсил едиб. О инди дә аиләси илә бирликдә Алманијадакы евиндә Азәрбајҹан телевизијасынын "Лидер" вә Аз.ТВ каналларына тамаша едир. Гәләм достумун еви Азәрбајҹан муғамлары јазылмыш видеокасетләрлә долудур. Елимизин фолклору, ашыг һавалары онун дәриндән билдији вә вахтилә елми ҹәһәтдән тәдгиг етдији саһәләриндәндир.

Халг артистләри Мустафа Мәрдановла, Мәммәдрза Шыхзамановла, Әләкбәр Сејфи илә, Мәммәд Бүрҹәлијевлә, Әләддин Аббасовла, ҹәфакеш шаир Борсунлу Мәзаһирлә, драматург алим Алтај Мәммәдовла, јазычы-публисист Әһмәд Исајевлә вә бу мәгаләнин мүәллифи илә узун мүддәт достлуғу, паклығы, сәмимилији илә газандығы бөјүк нүфуз ону бир инсан кими характеризә едән ҹәһәтдир.

2006-чы ил ијун ајынын орталарында бу көзәл сәнәткарын анадан олмасынын 70 иллијини өлкәнин әдәби иҹтимаијјәти, Азәрбајҹан Јазычы-

лар Бирлији, Губа вә Оғуз ели тәнтәнә илә гејд едиб.

"Әдәбијјат гәзети" јубилјара ајрыча сәһифә ајырыб. Дикәр мәтбуат органларында да мараглы јазылар дәрч олунуб. Исраил бәстәкары Год Михајлов Симах Шејданын 25-дән артыг шеринә мусиги бәстәләјиб. Јусиф Бен Јухај кими көркәмли мүғәннинин ифасында бу маһнылар Азәрбајчанда, Исраилдә, Алманијада, Америка гитәсиндә сәсләниб.

Сәһһәти илә әлагәдар олараг Симах Шејда әввәл Исраилә көчүб. Бурада сәнәткарын үрәјиндә ағыр әмәлијјат апарылыб, бунун ардынча көзләрини мүаличә етдириб. Лакин истәнилән нәтичә алынмајыб. Сағалмаг үмиди илә сонра Алманијаја кәлиб. Тәәссүф ки, дава-дәрманын бир фајдасы көрүнмүр. Оғуздан-Кәнчәјә, Кәнчәдән-Бакыја, ата-анасыны итирәндән сонра исә Бакыдан-Исраилә, Исраилдән дә Алманијанын Мүнһен шәһәринә көчүбләр. Мәрјәм ханым дејир ки, һәр дәфә "харичи өлкәјә көчүрүк", - дејәндә евдә габгачагдан тутмуш јорған-дөшәјә гәдәр гонум-гоншуја бағышлајырам ки, јүкүмүз јүнкүл олсун. Јалныз ушаглары, бир аз да әјин-баш көтүрүб чыхырыг. Алманијада јетмиш јашымызда, тәзә-тәзә ев-ешик гурмаға башламышыг.

Бу аиләнин бир әвәзсиз сәрвәти вардыр ки, бу мәнәвијјатча зәнкинлији вә көзү-көнлү тохлуғу, дүнја малында зәррәчә тамаһларынын јохлуғудур. Мән буну евләриндә ики күн гонаг галанда өзләринә дә дедим.

Мәрјәм ханым илаһи бир гадындыр. Симах Шејдаја ушаг кими хидмәт едир; бу әлилин аилә

һәјатынын сәдагәт нотларыдыр ки, һәр күн, һәр ан сәсләнир. Евдә онларла бир јердә јашајан Тејмуру (она аиләдә Телман дејирләр) о гәдәр һәссас, о, гәдәр үрәји јумшаг вә истиганлыдыр ки, мәни "Әми" дејә чағырыр, оғлум Һазимә доғма гардаш көзү илә бахырды. Муғаматдан, ашыг һаваларындан дојмаг билмирди. Бу ил онун әлли јашы тамам олуб, бир аз хәстә һалдыр вә мүаличә алыр. Үрәји кенишдир. Она верилмиш такси вә метро билетләрини бизә тәклиф едирди.

Симах Шејданын оғлу Мүшфиг вә гызы Фирузә ев-ешик саһибидирләр. Һәрәси шәһәрин бир тәрәфиндә јашајыр, амма елә күн олмаз ки, валидејнләрини кәлиб јохламасынлар. Раһилә адлы гызлары исә аиләси илә Америкада мәскунлашыб.

Симахын јетмиш иллик јубилејиндә өвладлары, гоһум-әграбалары, нәвә-нәтичәләри, достлары, гәләм јолдашлары, бу мөһтәшәм инсаны тәбрик үчүн бизим Јазычылар Бирлијинин Натәван Клубуна топлашмышдылар. Ону тәбрик едир, һаггында хош сөзләр дејирдиләр. Һәмин күнләрдә мән сәһһәтимлә әлагәдар Бакыда дејилдим. Јубилеј видеокасетинә Мүнһендә, Симахкилдә бахдым. Бирлијин сәдри, халг јазычысы Анар өлкәнин јазарлары адындан јубилјара гызылкүл дәстәси бағышлады, әлли иллик әдибин фәалијјәтиндән, ушаглар вә бөјүкләр үчүн јаздығы сајсыз һесабсыз сәнәт инчиләриндән, һабелә әдәби әлагәләр саһәсиндәки хидмәтләриндән данышды. Сонра да сөзү халг шаири Габилә верди.

Тәдбир хејли давам етди. Шаирин достлары бир-биринин ардынча күрсүјә галхыб, үрәк сөзләрини сөјләдиләр. Габилин јуморлары көрүшә бајрам шәнлији кәтириб. Милли Мәчлисин үзвү, даг јәһудиси Јевда Абрамовун һәрарәтли чыхышы, даг јәһудиләри ичмасынын сәдри Семјон Борисовичин Симахын шәрәфинә дедији сәмими сөзләр дә һамынын үрәјиндән олуб. Шаир достумуз А.Абдулла Симах Шејданын һеча вәзниндә јаздығы гәзәлләри жанрын өзүндә јенилик адландырыб вә бир нүмунә охујуб. Биз гәзәлин әрузда јазылмасына адәт етмишик вә һечада тәсәввүр етмирдик. Симах Шејда һеча вәзниндә бир китаб гәзәл јазыб вә инди икинчисини чапа һазырлајыр.

Симах Шејда јәһуди вә Азәрбајчан дилләрини инчәликләринә гәдәр билир. Китабларында да онлары бир-бириндән ајырмыр, бир јердә тәгдим едир. О јени нәғмә мәтнләри үзәриндә ишләјир. Азәрбајчан вә јәһуди шаирләриндән еләдији тәрчүмәләр антолокијасыны һәвәслә чапа һазырлајыр.

Јери кәлмишкән бу надир инсанын шәхсијјәти барәдә гысача да олса, бир епизоду хатырламаг истәјирәм. Вәзијјәт елә кәтирмишди ки, инфарктдан сонра мәндә үрәк-дамар ағрылары даһа да күчләнмишди. Һәкимләр гәрара кәлдиләр ки, үрәк-дамар әмәлијјаты лазымдыр, башга чарә јохдур. Алманијанын Мүнһен шәһәринә, үрәк-дамар клиник хәстәханасына кедәси олдум. Бир күн габаг мәнә Алманијадан зәнк олду: - мәнән Нәриман, Симах Шејда. Мүнһен шәһәриндә јашајырам. Мәндә дә үрәк әмәлијјаты олуб ке-

чиб. Кәл, дарыхма...

Сағ олсун! Бөјүк тәсәлли иди.

Оғлумла биркә Бакы-Милан-Мүнһен јолуна билет алдыг. Италијаја гәдәр тәјјарә илә учдуг. Орадан Мүнһенә кечә гатары илә кетдик. Верона дејилән јердә дүшүб, кечә саат бирдә Мүнһенә кедән башга гатара миндик. Сәһәрә јахын вағзалда мәни башга достумла бәрабәр шаир Симах Шејда гаршылады. Әлиндә әса вар иди. Әмәлијјатдан сонра ирәлини јахшы сечмирди. Гучаглашыб өпүшдүк.

Хәстәханаја јанварын једдисиндә дахил олдум, сәккизиндә илк әмәлијјат апардылар. Икинчи әмәлијјат он бешиндә кечирилди. Јанварын он доггузунда клиникадан оғлумла бәрабәр евә јазылдым. Симах бизи өз евинә кәтирди вә ики күн бу надир инсанын гонағы олдуг. Ханымы Мәрјәм бачы хөрәк биширмәздән габаг истәјимизи сорушур, арзумузу нәзәрә алырды. Клиникада галдығым ики һәфтә әрзиндә исә Симах һәр күн јаныма кәлир, мәни тәк гојмурду.

Арада Мүнһендә бәрк туфан гопду, ағачлары көкүндән чыхарырды. Дөвләт ики күн мәктәбләри бағлады, дәрс кечилмәди. Симаха зәнк вурдум ки, һәмин күнләрдә кәлмәсин. Амма кәлди. Италијаја јола дүшәндә дә (Бакыја Милан шәһәриндән тәјјарә илә учдуг) оғлу Мүшфигин машынында бизи гатара кәтириб раһатладылар.

Мән бир даһа јәгин етдим ки, Симах Шејда нәинки көзәл шаир, јени тәравәтли гәзәлләр мүәллифи, һәссас инсан вә нүмунәви аилә башчысы, һәм дә дар күнүн дирәјидир. Онун чөһрәсиндә әбәди нур вар. Үзү үрәји кими ишыглыдыр. Кли-

никаја һәр кәлиши шәфа кәтирирди. Онун пак үрәјиндән сүзүлүб кәлән булаг сују кими дуру шеирләр Азәрбајчан вә јәһуди халгларынын һәмрәјлик симфонијасы кими сәсләнир, бундан сонра да сәсләнәчәк, көнүлләри сәһәр меһи кими охшајачаг.

Нәриман Һәсәнзадә,
Азәрбајчанын халг шаири

П.С. Симах, јадындамы Алманијада Мүзәффәр Пиријеви хатырладыг. Кәнчәдә таныш олмушдуг. Биздән јашча бөјүк иди. Мүһарибәдән гајытмышды. Өлмәз шаиримиз Мүшфиги синәдәфтәр билирди. Өзүнүн дә көзәл шерләри вар иди. Бизә мәсләһәт көрүрдү ки, шерин мәзмуну илә јанашы сөзләрин сечиминә, ахычылығына, рәванлығына һәмишә фикир верәк. Јәни шеир дејәндә дил ағызда әзијјәт чәкмәсин, тәрчүмә дилинә охшамасын. Бизә илк "шер дәрси" верән кәнчәли шаир Мүзәффәр Пиријев олду. Сәнин ушаг шеирләриндән тутмуш, јәни һеча вәзниндә јаздығын гәзәлләрә гәдәр бу рәванлығы көрәндә әсәрин мәзмуну, мәнасы илә јанашы дилимизин өзүндән дә бөјүк зөвг алырам. Тәәссүф, чох тәәссүф ки, инди шаирләр ичиндә нә Мүзәффәрин ады чәкилир, нә онун шерләри сәсләнир. Елә бил һеч о адда шаир олмајыб. Биз ону унутмамалыјыг. Јәгин шаирлик дә бир таледир. Сәнин талејин кими: Гејрәтли, сәдагәтли гардашым Симах!

Мүнһен-Бакы

## Şairlik taledir

*Taleyin xoş olsun, Simax qardaş!*

Almaniyanın Münhen şəhərinin Alfred Şmid küçəsindəki yaşıl küknar ağaclarının əhatə etdiyi göz oxşayan tikililərin birində 5 saylı binada, Azərbaycan və dağ yəhudilərinin dilində gözəl əsərlər yazan və dünyanın müxtəlif ölkələrində yaxşı tanınan nəğməkar şairimiz yaşayır. Bu-Simax Şeydadır!

Şeyda onun təxəllüsüdür. Adı, soy adı Simax Yuşvayevdir. Əllinci ilin əvvəllərində biz qədim Gəncədə tanış olanda o, təzə-təzə uşaq şeirləri yazırdı. O qədər səlis axıcı dili var idi ki, oxuyan kimi əzbərlənirdi. Bəzən yeni ayaq açan, dişi mırıx uşaqların öz dilində yazır, əslində onların könlünü oxşayırdı.

*...Göy dənizi dalğalar,*
*Nehrə kimi çalxalar.*
*...Neft daşları uzaqdı,*
*Yol gedirik nə vaxtdı.*

Nəhayət, onun ilk "Təyyarə" kitabı nəşr olundu. Həm tanındı, həm də sevilməyə başlandı. Simax Şeyda özü Oğuz rayonunda doğulub. 1940-cı ildə dörd yaşında ikən valideynləri ilə birlikdə Gəncəyə köçüb. Gəncəli uşaqlarla qaynayıb-qarışıb, onların ləhcəsində danışıb, şeirlər yazıb.

On səkkiz yaşında sevib-seçdiyi Məryəm ilə ailə həyatı qurub və xoşbəxt ömür sürməkdədir.

İndi oğlanları, qızları, on nəfərdən artıq nəvə - nəticələri toyda-düyündə, ad günlərində Simax Şeyda ilə Məryəm xanımın başına toplaşır, xoş əhval-ruhiyyə, əsl bayram şənliyi yaradırlar.

Yuşvayevlər ailəsi dünyanın hər yanına səpələnib. Neçə-neçə ölkədən məktub, teleqram alırlar. Övladlarının bəziləri Bakıda, Moskvada, Amerikada, İsraildə ailə qurub yaşayırlar. Amma o gün olmur ki, evlərinə zəng çalıb valideynlərindən hal-əhval tutmasınlar.

Şairin Almaniyadakı evinə xarici ölkələrdən də çoxlu müsafir, məktub, teleqram gəlir: ondan məsləhət alırlar, poeziya simpoziumlarına, ədəbi müsabiqələrə dəvət edirlər. Almaniyanın müxtəlif şəhərlərində yaşayan azərbaycanlılar onu öz şənliklərinə qonaq çağırır, məclisin başında ona yer verirlər.

İsrail Dağ Yəhudiləri Yazıçılar Birliyinin sədri Eldar Gurşümov qələm dostu S.Şeydanı haqlı olaraq “İki xalqın şairi” adlandırır. Yəhudi və Azərbaycan xalqlarının ədəbi əlaqələri sahəsində Simax Şeydanın xidmətləri əvəzsizdir. O İsrailə köçdükdən sonra hər iki dildə “Şirvanlı qız” və “Sor məni” adlı əsərlərini nəşr etdirib. Ümumiyyətlə şairin on üç kitabının yarısından çoxu Azərbaycandan bəhs edir. O doğulduğu, yaşadığı torpağı, xalqı heç vaxt unutmur, əksinə harada yaşamağından asılı olmayaraq Odlar Yurdunun ədəbi elçisi funksiyasından məmnunluq duyur. Bu nəcib xidmətlərə görə mən Azərbaycan ziyalıları adından qələm qardaşıma minnətdarlığımı bildirirəm. Onda hər şey təbii alınır - Qarabağ yarasından ürək ağrısı ilə danışması da, yəhudi - Azərbaycan dostluğundan, qədim əlaqələrimizdən hərarətlə bəhs etməsi də.

Bakı Dövlət Universitetini bitirdikdən sonra Simax

Şeyda Gəncədə və Bakıda müxtəlif dövlət vəzifələrində işləyib. Azərbaycan mədəniyyətinin, xalq teatrlarının inkişafı yolunda gücünü əsirgəməyib. Onun ilhamının ən qaynar çağlarında yazdığı mənzum pyeslər, nağıllar, poemalar, nəşr etdirdiyi kitablar, eləcə də publisist məqalələr Azərbaycan həyatını ləyaqətlə təmsil edib. O indi də ailəsi ilə birlikdə Almaniyadakı evində Azərbaycan televiziyasının "Lider" və Az.TV kanallarına tamaşa edir. Qələm dostumun evi Azərbaycan muğamları yazılmış videokasetlərlə doludur. Elimizin folkloru, aşıq havaları onun dərindən bildiyi və vaxtilə elmi cəhətdən tədqiq etdiyi sahələrindəndir.

Xalq artistləri Mustafa Mərdanovla, Məmmədrza Şıxzamanovla, Ələkbər Seyfi ilə, Məmməd Bürcəliyevlə, Ələddin Abbasovla, cəfakeş şair Borsunlu Məzahirlə, dramaturq alim Altay Məmmədovla, yazıçı-publisist Əhməd İsayevlə və bu məqalənin müəllifi ilə uzun müddət dostluğu, paklığı, səmimiliyi ilə qazandığı böyük nüfuz onu bir insan kimi xarakterizə edən cəhətdir.

2006-cı il iyun ayının ortalarında bu gözəl sənətkarın anadan olmasının 70 illiyini ölkənin ədəbi ictimaiyyəti, Azərbaycan Yazıçılar Birliyi, Quba və Oğuz eli təntənə ilə qeyd edib.

"Ədəbiyyat qəzeti" yubilyara ayrıca səhifə ayırıb. Digər mətbuat orqanlarında da maraqlı yazılar dərc olunub. İsrail bəstəkarı Qod Mixaylov Simax Şeydanın 25-dən artıq şeirinə musiqi bəstələyib. Yusif Ben Yuxay kimi görkəmli müğənninin ifasında bu mahnılar Azərbaycanda, İsraildə, Almaniyada, Amerika qitəsində səslənib.

Səhhəti ilə əlaqədar olaraq Simax Şeyda əvvəl İsrailə köçüb. Burada sənətkarın ürəyində ağır əməliyyat aparı-

lıb, bunun ardınca gözlərini müalicə etdirib. Lakin istənilən nəticə alınmayıb. Sağalmaq ümidi ilə sonra Almaniyaya gəlib. Təəssüf ki, dava-dərmanın bir faydası görünmür. Oğuzdan-Gəncəyə, Gəncədən-Bakıya, ata-anasını itirəndən sonra isə Bakıdan-İsrailə, İsraildən də Almaniyanın Münhen şəhərinə köçüblər. Məryəm xanım deyir ki, hər dəfə "xarici ölkəyə köçürük", - deyəndə evdə qab-qacaqdan tutmuş yorğan-döşəyə qədər qonum-qonşuya bağışlayıram ki, yükümüz yüngül olsun. Yalnız uşaqları, bir az da əyin-baş götürüb çıxırıq. Almaniyada yetmiş yaşımızda, təzə-təzə ev-eşik qurmağa başlamışıq.

Bu ailənin bir əvəzsiz sərvəti vardır ki, bu mənəviyyatca zənginliyi və gözü-könlü toxluğu, dünya malında zərrəcə tamahlarının yoxluğudur. Mən bunu evlərində iki gün qonaq qalanda özlərinə də dedim.

Məryəm xanım ilahi bir qadındır. Simax Şeydaya uşaq kimi xidmət edir; bu əlilin ailə həyatının sədaqət notlarıdır ki, hər gün, hər an səslənir. Evdə onlarla bir yerdə yaşayan Teymuru (ona ailədə Telman deyirlər) o qədər həssas, o, qədər ürəyi yumşaq və istiqanlıdır ki, məni "Əmi" deyə çağırır, oğlum Nazimə doğma qardaş gözü ilə baxırdı. Muğamatdan, aşıq havalarından doymaq bilmirdi. Bu il onun əlli yaşı tamam olub, bir az xəstə haldır və müalicə alır. Ürəyi genişdir. Ona verilmiş taksi və metro biletlərini bizə təklif edirdi.

Simax Şeydanın oğlu Müşfiq və qızı Firuzə ev-eşik sahibidirlər. Hərəsi şəhərin bir tərəfində yaşayır, amma elə gün olmaz ki, valideynlərini gəlib yoxlamasınlar. Rahilə adlı qızları isə ailəsi ilə Amerikada məskunlaşıb.

Simaxın yetmiş illik yubileyində övladları, qohum-əq-

rabaları, nəvə-nəticələri, dostları, qələm yoldaşları, bu möhtəşəm insanı təbrik üçün bizim Yazıçılar Birliyinin Natəvan Klubuna toplaşmışdılar. Onu təbrik edir, haqqında xoş sözlər deyirdilər. Həmin günlərdə mən səhhətimlə əlaqədar Bakıda deyildim. Yubiley videokasetinə Münhendə, Simaxgildə baxdım. Birliyin sədri, xalq yazıçısı Anar ölkənin yazarları adından yubilyara qızılgül dəstəsi bağışladı, əlli illik ədibin fəaliyyətindən, uşaqlar və böyüklər üçün yazdığı saysız hesabsız sənət incilərindən, habelə ədəbi əlaqələr sahəsindəki xidmətlərindən danışdı. Sonra da sözü xalq şairi Qabilə verdi.

Tədbir xeyli davam etdi. Şairin dostları bir-birinin ardınca kürsüyə qalxıb, ürək sözlərini söylədilər. Qabilin yumorları görüşə bayram şənliyi gətirib. Milli Məclisin üzvü, dağ yəhudisi Yevda Abramovun hərarətli çıxışı, dağ yəhudiləri icmasının sədri Semyon Borisoviçin Simaxın şərəfinə dediyi səmimi sözlər də hamının ürəyindən olub. Şair dostumuz A.Abdulla Simax Şeydanın heca vəznində yazdığı qəzəlləri janrın özündə yenilik adlandırıb və bir nümunə oxuyub. Biz qəzəlin əruzda yazılmasına adət etmişik və hecada təsəvvür etmirdik. Simax Şeyda heca vəznində bir kitab qəzəl yazıb və indi ikincisini çapa hazırlayır.

Simax Şeyda yəhudi və Azərbaycan dillərini incəliklərinə qədər bilir. Kitablarında da onları bir-birindən ayırmır, bir yerdə təqdim edir. O yeni nəğmə mətnləri üzərində işləyir. Azərbaycan və yəhudi şairlərindən elədiyi tərcümələr antologiyasını həvəslə çapa hazırlayır.

Yeri gəlmişkən bu nadir insanın şəxsiyyəti barədə qısaca da olsa, bir epizodu xatırlamaq istəyirəm. Vəziyyət

elə gətirmişdi ki, infarktdan sonra məndə ürək-damar ağrıları daha da güclənmişdi. Həkimlər qərara gəldilər ki, ürək-damar əməliyyatı lazımdır, başqa çarə yoxdur. Almaniyanın Münhen şəhərinə, ürək-damar klinik xəstəxanasına gedəsi oldum. Bir gün qabaq mənə Almaniyadan zəng oldu: - mənən Nəriman, Simax Şeyda. Münhen şəhərində yaşayıram. Məndə də ürək əməliyyatı olub keçib. Gəl, darıxma...

Sağ olsun! Böyük təsəlli idi.

Oğlumla birgə Bakı-Milan-Münhen yoluna bilet aldıq. İtaliyaya qədər təyyarə ilə uçduq. Oradan Münhenə gecə qatarı ilə getdik. Verona deyilən yerdə düşüb, gecə saat birdə Münhenə gedən başqa qatara mindik. Səhərə yaxın vağzalda məni başqa dostumla bərabər şair Simax Şeyda qarşıladı. Əlində əsa var idi. Əməliyyatdan sonra irəlini yaxşı seçmirdi. Qucaqlaşıb öpüşdük.

Xəstəxanaya yanvarın yeddisində daxil oldum, səkkizində ilk əməliyyat apardılar. İkinci əməliyyat on beşində keçirildi. Yanvarın on doqquzunda klinikadan oğlumla bərabər evə yazıldım. Simax bizi öz evinə gətirdi və iki gün bu nadir insanın qonağı olduq. Xanımı Məryəm bacı xörək bişirməzdən qabaq istəyimizi soruşur, arzumuzu nəzərə alırdı. Klinikada qaldığım iki həftə ərzində isə Simax hər gün yanıma gəlir, məni tək qoymurdu.

Arada Münhendə bərk tufan qopdu, ağacları kökündən çıxarırdı. Dövlət iki gün məktəbləri bağladı, dərs keçilmədi. Simaxa zəng vurdum ki, həmin günlərdə gəlməsin. Amma gəldi. İtaliyaya yola düşəndə də (Bakıya Milan şəhərindən təyyarə ilə uçduq) oğlu Müşfiqin maşınında bizi qatara gətirib rahatladılar.

Mən bir daha yəqin etdim ki, Simax Şeyda nəinki gözəl şair, yeni təravətli qəzəllər müəllifi, həssas insan və nümunəvi ailə başçısı, həm də dar günün dirəyidir. Onun çöhrəsində əbədi nur var. Üzü ürəyi kimi işıqlıdır. Klinikaya hər gəlişi şəfa gətirirdi. Onun pak ürəyindən süzülüb gələn bulaq suyu kimi duru şeirlər Azərbaycan və yəhudi xalqlarının həmrəylik simfoniyası kimi səslənir, bundan sonra da səslənəcək, könülləri səhər mehi kimi oxşayacaq.

Nəriman Həsənzadə,
Azərbaycanın xalq şairi

P.S. Simax, yadındamı Almaniyada Müzəffər Piriyevi xatırladıq. Gəncədə tanış olmuşduq. Bizdən yaşca böyük idi. Müharibədən qayıtmışdı. Ölməz şairimiz Müşfiqi sinədəftər bilirdi. Özünün də gözəl şeirləri var idi. Bizə məsləhət görürdü ki, şeirin məzmunu ilə yanaşı sözlərin seçiminə, axıcılığına, rəvanlığına həmişə fikir verək. Yəni şeir deyəndə dil ağızda əziyyət çəkməsin, tərcümə dilinə oxşamasın. Bizə ilk "şeir dərsi" verən gəncəli şair Müzəffər Piriyev oldu. Sənin uşaq şeirlərindən tutmuş, yəni heca vəznində yazdığın qəzəllərə qədər bu rəvanlığı görəndə əsərin məzmunu, mənası ilə yanaşı dilimizin özündən də böyük zövq alıram. Təəssüf, çox təəssüf ki, indi şairlər içində nə Müzəffərin adı çəkilir, nə onun şeirləri səslənir. Elə bil heç o adda şair olmayıb. Biz onu unutmamalıyıq. Yəqin şairlik də bir taledir. Sənin taleyin kimi: Qeyrətli, sədaqətli qardaşım Simax!

Münhen-Bakı
Münhen-Bakı

# Гэзэллэр

Мэндэн истэр һэр ҝөзэл јар гэзэллэр,
Көнүл ачан, руһу охшар гэзэллэр.

Дејирэм ки, мэндэн Фүзули олмаз,
Шаир јазыб һеј о ки, вар гэзэллэр.

Ваһидэ дэ јахын ҝэлэ билмэрэм,
Онункудур гатар-гатар гэзэллэр.

Һэр охујан Молла Пэнаһ олмајыр,
Мэним дэ вар этри баһар гэзэллэр.

Ал гэлэми, Симах дурма, Симах јаз,
Сэндэн галсын гој јадиҝар гэзэллэр.

*02.12.2004*



# Qəzəllər

Məndən istər hər gözəl yar qəzəllər,
Könül açan, ruhu oxşar qəzəllər.

Deyirəm ki, məndən Füzuli olmaz,
Şair yazıb hey o ki, var qəzəllər.

Vahidə də yaxın gələ bilmərəm,
Onunkudur qatar-qatar qəzəllər.

Hər oxuyan Molla Pənah olmayır,
Mənim də var ətri bahar qəzəllər.

Al qələmi, Simax durma, Simax yaz,
Səndən qalsın qoy yadigar qəzəllər.

*02.12.2004*



# Ҝөзәлләр

Ҝөзәлләр, аj ҝөзәлләр! Гоjну баһар, ҝөзәлләр.
Истәмирәм едәсиз мәни бимар ҝөзәлләр.

Наз-гәмзәниз өнүндә әриjирәм шам кими,
Бәс кимә мән ешгими едим изһар, ҝөзәлләр?

Биринизин ҹамалы мәфтун еjләjиб мәни,
Һәр үз-үзә ҝәләндә гачыр о jар, ҝөзәлләр.

Бу севданын әлиндән jохдур кечәм-ҝүндүзүм,
Ҝүләчәкдир үзүмә һачан рүзҝар, ҝөзәлләр?

Симах Шеjда, мөһкәм ол, руһдан дүшмә һеч заман,
Гоjмаз һеч вахт галасан сәни начар ҝөзәлләр.

16.09.2006

# Gözəllər

Gözəllər, ay gözəllər! Qoynu bahar, gözəllər.
İstəmirəm edəsiz məni bimar gözəllər.

Naz-qəmzəniz önündə əriyirəm şam kimi,
Bəs kimə mən eşqimi edim izhar, gözəllər?

Birinizin camalı məftun eyləyib məni,
Hər üz-üzə gələndə qaçır o yar, gözəllər.

Bu sevdanın əlindən yoxdur gecəm-gündüzüm,
Güləcəkdir üzümə haçan rüzgar, gözəllər?

Simax Şeyda, möhkəm ol, ruhdan düşmə heç zaman,
Qoymaz heç vaxt qalasan səni naçar gözəllər.

16.09.2006

# Гачар мәндән

Бир гәзәлим, бир шерим галса јадикар мәндән,
Разы галар билирәм Вәтән мәндән, јар мәндән.

Дејин јахын кәлмәсин көрүнмәсин көзүмә,
Бир дәфәлик әл чәксин, узаг кәзсин сар мәндән.

Көзәл Одлар Јурдунун бәхтәвәр бир оғлујам,
Истәр гызлар, кәлинләр гәлб ачан әшар мәндән.

Олсам Кәнҹәбасарда, јахуд Гахда, Оғузда,
Ширин-шәкәр балалар сөз-сөһбәт ачар мәндән.

Симах Шејда севдикҹә назәнин көзәлләри,
Гоҹалыг үз чевириб ешг илә гачар мәндән.

18.10.2006



# Qaçar məndən

Bir qəzəlim, bir şerim qalsa yadigar məndən,
Razı qalar bilirəm Vətən məndən, yar məndən.

Deyin yaxın gəlməsin görünməsin gözümə,
Bir dəfəlik əl çəksin, uzaq gəzsin sar məndən.

Gözəl Odlar Yurdunun bəxtəvər bir oğluyam,
İstər qızlar, gəlinlər qəlb açan əşar məndən.

Olsam Gəncəbasarda, yaxud Qaxda, Oğuzda,
Şirin-şəkər balalar söz-söhbət açar məndən.

Simax Şeyda sevdikcə nazənin gözəlləri,
Qocalıq üz çevirib eşq ilə qaçar məndən.

18.10.2006



# Фөвгүнә варма

Сач-саггалым ағарыб хеjли вахтдыр, замандыр,
Үрәjим санки тутгун булудлу асимандыр.

Һара бахсам гаранлыг аjаг алыр үстүмә,
Гоjмур сакит отурум, елә бил ки, дүшмандыр.

Даим дүшүр jадыма ушаглығым, кәнчлиjим,
О күнләри jад етмәк дәрдимә бир дәрмандыр.

Јардан илһам алырам jазырам әшарымы,
Кедирәм өз jолумла әчәб көзәл замандыр.

Симах Шеjда, һәр сөзүн фөвгүнә чох да варма,
Вәтәнин Азәрбаjчан, елин, обан Ширвандыр.

18.08.2006



# Fövqünə varma

Saç-saqqalım ağarıb xeyli vaxtdır, zamandır,
Ürəyim sanki tutqun buludlu asimandır.

Hara baxsam qaranlıq ayaq alır üstümə,
Qoymur sakit oturum, elə bil ki, düşmandır.

Daim düşür yadıma uşaqlığım, gəncliyim,
O günləri yad etmək dərdimə bir dərmandır.

Yardan ilham alıram yazıram əşarımı,
Gedirəm öz yolumla əcəb gözəl zamandır.

Simax Şeyda, hər sözün fövqünə çox da varma,
Vətənin Azərbaycan, elin, oban Şirvandır.

18.08.2006



# Ләби-јар вусаллыјам

Чәфа вермәјин мәнә, онсуз да чәфалыјам,
Бир дилбәрә вурғунам, ешглијәм, һаваlыјам.

Ачдым үрәк сөзүмү көзәлләрин хасына,
Кет тајыны тап деди, о күндән мәлаллыјам.

Отуруб дүшүнүрәм: Нә едим, нечә едим?
Кимә дејим дәрдими, Шејх Сәнан хәјаллыјам.

Мәһәббәтин јолунда Фәрһад тәк дағ чапарам,
Мән дә о икид кими ешгидә вәфалыјам.

Гапы бағлајан фәләк әлбәт ачар Симаха,
Мән бүлбүлү шејдајам, ләби-јар вусаллыјам.

06.10.2006

# Ləbi-yar vüsallıyam

Cəfa verməyin mənə, onsuz da cəfalıyam,
Bir dilbərə vurğunam, eşqliyəm, havalıyam.

Açdım ürək sözümü gözəllərin xasına,
Get tayını tap dedi, o gündən məlallıyam.

Oturub düşünürəm: Nə edim, necə edim?
Kimə deyim dərdimi, Şeyx Sənan xəyallıyam.

Məhəbbətin yolunda Fərhad tək dağ çaparam,
Mən də o igid kimi eşqidə vəfalıyam.

Qapı bağlayan fələk əlbət açar Simaxa,
Mən bülbülü şeydayam, ləbi-yar vüsallıyam.

06.10.2006

# Көзләри јолларададыр

Уҹа дағлар башына думан кәләр, гар кәләр,
Булаг үстә күл үзлү, аһу көзлү јар кәләр.

Гәлбләрә севинҹ, фәрәһ, бир раһатлыг кәтирәр,
Елә ки, шәнликләрә гавал, гармон, тар кәләр.

Јам-јашыл кејәр бағлар, ачар күлләр-чичәкләр,
Ширин нәғмәләр илә елә ки, баһар кәләр.

Севкилиләр көрүшәр севинҹ, шадлыг ичиндә,
Мәҹлисә ҹан вермәјә тоја Ағалар[1] кәләр.

Бир зүлфү пәришанын әсири олуб Симах,
Көзләри јолларададыр, һачан о никар кәләр.

*1. Ағалар Бајрамов - Азәрбајҹанын әмәкдар артисти*

*24.08.2006*



# Gözləri yollardadır

Uca dağlar başına düman gələr, qar gələr,
Bulaq üstə gül üzlü, ahu gözlü yar gələr.

Qəlblərə sevinc, fərəh, bir rahatlıq gətirər,
Elə ki, şənliklərə qaval, qarmon, tar gələr.

Yam-yaşıl geyər bağlar, açar güllər-çiçəklər,
Şirin nəğmələr ilə elə ki, bahar gələr.

Sevgililər görüşər sevinc, şadlıq içində,
Məclisə can verməyə toya Ağalar[1] gələr.

Bir zülfü pərişanın əsiri olub Simax,
Gözləri yollardadır, haçan o nigar gələr.

*1. Ağalar Bayramov - Azərbaycanın əməkdar artisti*

*24.08.2006*



# Мәһәббәт

Ешг бағынын ән ширин нематидир мәһәббәт,
Ики севән үрәјин үлфәтидир мәһәббәт.

Адәм илә һәввадан галыб мин-мин илләрдир,
Кәлинләрин, гызларын исмәтидир мәһәббәт.

Бир назлы јар јолунда Мәчнун кечди чанындан,
Севиб-севиләнләрин гејрәтидир мәһәббәт.

Күлүнк вуран Фәрһадын голунун гүввәтидир,
Бир дә дилләрдә кәзән шөһрәтидир мәһәббәт.

Лејлинин көзләриндән ахан ганлы јашлардыр,
Бәлкә дә фәләк илә сөһбәтидир мәһәббәт.

Симах Шејда, севкисиз мәнасы јох һәјатын,
Һәсрәт чәкән гәлбләрин һәсрәтидир мәһәббәт.

04.08.2006



# Məhəbbət

Eşq bağının ən şirin nemətidir məhəbbət,
İki sevən ürəyin ülfətidir məhəbbət.

Adəm ilə Həvvadan qalıb min-min illərdir,
Gəlinlərin, qızların ismətidir məhəbbət.

Bir nazlı yar yolunda Məcnun keçdi canından,
Sevib-sevilənlərin qeyrətidir məhəbbət.

Külüng vuran Fərhadın qolunun qüvvətidir,
Bir də dillərdə gəzən şöhrətidir məhəbbət.

Leylinin gözlərindən axan qanlı yaşlardır,
Bəlkə də fələk ilə söhbətidir məhəbbət.

Simax Şeyda, sevgisiz mənası yox həyatın,
Həsrət çəkən qəlblərin həsrətidir məhəbbət.

04.08.2006



# Бир јар көрдүм Мүнһендә

Бир јар көрдүм Мүнһендә јарыма вар бәнзәри,
Илк бахышдан чәлб етди нәзәрими нәзәри.

Килә-килә әридим бахышынын өнүндә,
Аман аллаһ! Көр нәләр сөјләјирди көзләри.

Залым гызы бүсбүтүн алды мәни әлинә,
Бирчә өлдүрмәк үчүн чатышмырды хәнчәри.

Гошулуб күләкләрә, туфанлара кәләрди,
Олса иди һалымдан дилбәримин хәбәри.

Симах Шејда, көзәлләр бир күн өлдүрәр сәни,
Унударсан бир јоллуг һәр гүссәни, кәдәри.

05.08.2006

# Bir yar gördüm Münhendə

Bir yar gördüm Münhendə yarıma var bənzəri,
İlk baxışdan cəlb etdi nəzərimi nəzəri.

Gilə-gilə əridim baxışının önündə,
Aman allah! Gör nələr söyləyirdi gözləri.

Zalım qızı büsbütün aldı məni əlinə,
Bircə öldürmək üçün çatışmırdı xəncəri.

Qoşulub küləklərə, tufanlara gələrdi,
Olsa idi halımdan dilbərimin xəbəri.

Simax Şeyda, gözəllər bir gün öldürər səni,
Unudarsan bir yolluq hər qüssəni, kədəri.

05.08.2006

# Зөһрә улдузу кими

*Азәрбајчанын халг шаири*
*Нәриман Һәсәнзадәјә итһаф едирәм.*

Улдузлар көјдә јаныр, сәнсә јанырсан јердә,
Зөһрә улдузу кими ишыглысан шеирдә.

Јаздыгларын әсәрләр үрәкләрә руһ верир,
Маһныларын долашыр ағызларда, дилләрдә.

Јаздын "Атабәјләр"и, көзәл "Зүмрүд гушу"ну,
Учуб Зүмрүд гушу тәк јашарсан көнүлләрдә.

"Нәриман"ын газанды халгын мәһәббәтини,
Даһа да мәшһурлашды бөјүк әдиб елләрдә.

Тәкчә күл-чичәк дејил, әзиз достум, гардашым,
Кәрәк сәпилсин сәнин башына ләл, көвһәр дә.

Симах Улу Танрыдан истәр чанын сағ олсун,
Даим уча оласан һәр бахышда, нәзәрдә.

14.01.2007



# Zöhrə ulduzu kimi

*Azərbaycanın xalq şairi*
*Nəriman Həsənzadəyə ithaf edirəm.*

Ulduzlar göydə yanır, sənsə yanırsan yerdə,
Zöhrə ulduzu kimi işıqlısan şeirdə.

Yazdıqların əsərlər ürəklərə ruh verir,
Mahnıların dolaşır ağızlarda, dillərdə.

Yazdın "Atabəylər"i, gözəl "Zümrüd quşu"nu,
Uçub Zümrüd quşu tək yaşarsan könüllərdə.

"Nəriman"ın qazandı xalqın məhəbbətini,
Daha da məşhurlaşdı böyük ədib ellərdə.

Təkcə gül-çiçək deyil, əziz dostum, qardaşım,
Gərək səpilsin sənin başına ləl, gövhər də.

Simax Ulu Tanrıdan istər canın sağ olsun,
Daim uca olasan hər baxışda, nəzərdə.

14.01.2007



# Чәкмишәм

Вәсли-јара чатмаг үчүн чох бәлалар чәкмишәм,
Ким нә билир ки, нә гәдәр налеји-зар чәкмишәм.

Кәрәм кими обаюба дүшдүм бир јар дальнча,
Дәрд, гәмини һәрдән кизли, һәрдән ашкар чәкмишәм.

Үрәјимин башында вар о көзәлин ситәми,
Аһым чыхыб асимана гуссә, губар чәкмишәм.

Бир заманлар гәлбим дүшүб дүрлү-дүрлү одлара,
О Никарчүн һәм мүсибәт, һәм интизар чәкмишәм.

Симах Шејда, көзәлләрин чох назыны чәкмә кәл,
Раһи-ешгдә күнләр илә һәсрәти-јар чәкмишәм.

26.09.2006



# Çəkmişəm

Vəsli-yara çatmaq üçün çox bəlalar çəkmişəm,
Kim nə bilir ki, nə qədər naleyi-zar çəkmişəm.

Kərəm kimi oba-oba düşdüm bir yar dalınca,
Dərd, qəmini hərdən gizli, hərdən aşkar çəkmişəm.

Ürəyimin başında var o gözəlin sitəmi,
Ahım çıxıb asimana qüssə, qubar çəkmişəm.

Bir zamanlar qəlbim düşüb dürlü-dürlü odlara,
O Nigarçün həm müsibət, həm intizar çəkmişəm.

Simax Şeyda, gözəllərin çox nazını çəkmə gəl,
Rahi-eşqdə günlər ilə həsrəti-yar çəkmişəm.

26.09.2006



# Дурналар

Көј үзүндә көрдүм сизи бир күнорта, дурналар,
Дүшдү көзәл Азәрбајчан јенә јада, дурналар.

Дедим:-Әлбәт Гарабағдан кәтирмисиз шад хәбәр,
Чал-чағырдыр, тој-бајрамдыр инди орда, дурналар.

Гачгынлар да, көчкүнләр дә гајыдыб өз јеринә,
Узаг дүшүб чамаатдан һәр ган-гада, дурналар.

Илләр илә көзләмишәм бу хәбәри, бу күнү,
Чәкә-чәкә һәсрәтини дүшдүм ода, дурналар.

Улу танрым, арзуларым каш һәгигәт олајды,
Бир гурбанлыг гоч кәсәјди Симах Шејда, дурналар.

14.08.2006

# Durnalar

Göy üzündə gördüm sizi bir günorta, durnalar,
Düşdü gözəl Azərbaycan yenə yada, durnalar.

Dedim: - Əlbət Qarabağdan gətirmisiz şad xəbər,
Çal-çağırdır, toy-bayramdır indi orda, dumalar.

Qaçqınlar da, köçkünlər də qayıdıb öz yerinə,
Uzaq düşüb camaatdan hər qan-qada, durnalar.

İllər ilə gözləmişəm bu xəbəri, bu günü,
Çəkə-çəkə həsrətini düşdüm oda, durnalar.

Ulu tanrım, arzularım kaş həqiqət olaydı,
Bir qurbanlıq qoç kəsəydi Simax Şeyda, dumalar.

14.08.2006

# Јарашыр

Көрүн бу көзәл чанана нечә ишвә-наз јарашыр,
Фәрги јохдур бир гәдәр чох, ја бир гәдәр аз јарашыр.

Ләбләринин шәсти гәми - һичраньымын дәрманыдыр,
Атәши-ешгдә јанана ол күрдү-шаһназ јарашыр.

Фикри хәјалымда һазир кечә-күндүз хәјалын,
Гыш кәлиб кедәндән сонра ел-обаја јаз јарашыр.

Һәзсәм баги-чәннәт ичрә бәлкә дә гәлбим ачылмаз,
Ашигә меј-мәзә үчүн дурна телли саз јарашыр.

Симаха, јарын ады дилимдә әзбәрдир мәним,
Сәнә бир афәти чан, јериши шаһбаз јарашыр.

29.09.2006



# Yaraşır

Görün bu gözəl canana necə işvə-naz yaraşır,
Fərqi yoxdur bir qədər çox, ya bir qədər az yaraşır.

Ləblərinin şəsti qəmi-hicranımın dərmanıdır,
Atəşi-eşqdə yanana ol kürd-şahnaz yaraşır.

Fikri xəyalımda gəzir gecə-gündüz xəyalın,
Qış gəlib gedəndən sonra el-obaya yaz yaraşır.

Gəzsəm bağі-cənnət içrə bəlkə də qəlbim açılmaz,
Aşiqə mey-məzə üçün duma telli saz yaraşır.

Simaxa, yarın adı dilimdə əzbərdir mənim,
Sənə bir afəti can, yerişi şahbaz yaraşır.

29.09.2006



# Гәриблик

Јенә дилә кәтирди үрәјими гәриблик,
Дөндәрир зәһримара чөрәјими гәриблик.

Мән Низами, Фүзули, Нәсими һәсрәтлијәм,
Уралајыр арзуму, диләјими гәриблик.

Вәтәнин бир дашы да әзиздир мәним үчүн,
Өпүб сахларам ону чаным кими, гәриблик.

Истәр олум Москиндә[1], истәр исә Мүнһендә,
Алыб кедир әлимдән истәјими гәриблик.

Симаха, көзәл Оғуз јубанма кәл, кәл дејир,
Орда бәләјиб анам бәләјими гәриблик.

1. Исраилдә шәһәр ады. 20.08.2006



# Qəriblik

Yenə dilə gətirdi ürəyimi qəriblik,
Döndərir zəhrimara çörəyimi qəriblik.

Mən Nizami, Füzuli, Nəsimi həsrətliyəm,
Uralayır arzumu, diləyimi qəriblik.

Vətənin bir daşı da əzizdir mənim üçün,
Öpüb saxlaram onu canım kimi, qəriblik.

İstər olum Moskində[1], istər isə Münhendə,
Alıb gedir əlimdən istəyimi qəriblik.

Simaxa, gözəl Oğuz yubanma gəl, gəl deyir,
Orda bələyib anam bələyimi qəriblik.

1. İsraildə şəhər adı.

20.08.2006



# Нә олар

Билирәм ки, севирсән, сев мәни ашкар, нә олар,
Чыхкинән ашигинә үрәкдән гәмхар, нә олар.

Мән ки, сәнин јолунда бүлбүлү шејда кимијәм,
Гојма ки, ешгимизә әл гатсын әғјар, нә олар.

Изин вер пәрванә тәк дөнүм-доланым башына,
Јаным-јаным дағ олум, ај гојну баһар, нә олар.

Ел билир, оба билир, јанарлар јашар һәјатда,
Бизим дә улдузумуз гој јансын пар-пар, нә олар.

Симаха, дәрјаларда чох үздү Нуһун кәмиси,
Сәнин дә гој јашасын јаздығын әшар, нә олар.

02.11.2006

# Nə olar

Bilirəm ki, sevirsən, sev məni aşkar, nə olar,
Çıxginən aşiqinə ürəkdən qəmxar, nə olar.

Mən ki, sənin yolunda bülbülü şeyda kimiyəm,
Qoyma ki, eşqimizə əl qatsın əğyar, nə olar.

İzin ver pərvanə tək dönüm-dolanım başına,
Yanım-yanım dağ olum, ay qoynu bahar, nə olar.

El bilir, oba bilir, yanarlar yaşar həyatda,
Bizim də ulduzumuz qoy yansın par-par, nə olar.

Simaxa, dəryalarda çox üzdü Nuhun gəmisi,
Sənin də qoy yaşasın yazdığın əşar, nə olar.

02.11.2006

# Вәтәнә оғул ол

Дәвә кими кинли олма, инсан һара, һејван һара?
Сахла пәркар дилини сән, кимә кәлди јахма гара.

Азәрбајчан торпағынын гаршысында әј башыны,
Чүнки һеч вахт гул олмамыш о душмәнә, нә дә сара.

Гәлбин јансын, чанын јансын Вәтәнин һәр дашы үчүн,
Вәтән ана, ана-Вәтән, нүмунә ол оғуллара.

Истәр Бабәк, истәр Меһди, истәрсә дә сән һәзи ол,
Охша икид Исрафилә, ја гәһрәман Бәхтијара.

Һәјат һүнәр мејданыдыр, сән дә һүнәр көстәр, Симах,
Кәл лајигли бир оғул ол, бу Вәтәнә, бу дијара.

03.11.2006



# Vətənə oğul ol

Dəvə kimi kinli olma, insan hara, heyvan hara?
Saxla pərgar dilini sən, kimə gəldi yaxma qara.

Azərbaycan torpağının qarşısında əy başını,
Çünki heç vaxt qul olmamış o düşmənə, nə də sara.

Qəlbin yansın, canın yansın Vətənin hər daşı üçün,
Vətən ana, ana-Vətən, nümunə ol oğullara.

İstər Babək, istər Mehdi, istərsə də sən Həzi ol,
Oxşa igid İsrafilə, ya qəhrəman Bəxtiyara.

Həyat hünər meydanıdır, sən də hünər göstər, Simax,
Gəl layiqli bir oğul ol, bu Vətənə, bu diyara.

03.11.2006



# Кәнчәнин

Ады олуб дилләрдә чар Кәнчәнин,
Нәсибидир, бир илк баһар Кәнчәнин.

Адамлары бир-бириндән меһрибан,
Бәзәјидир һәр көзәл јар Кәнчәнин.

Өвладыдыр Чавадхан тәк оғуллар,
Исрафил тәк гәһрәманлар Кәнчәнин.

Көзәлләшир күндән-күнә симасы,
Бағларында вар әрик, нар Кәнчәнин.

Узагларда Кәпәз, Гошгар көрүнүр,
Һачыкәнди, Көј-көлү вар Кәнчәнин.

Әлә дүшмәз көзәл пајыз тојлары,
Шәнликләри көнүл охшар Кәнчәнин.

Симах, сән дә бурда јазыб-јаратдын,
Көзү олдун бир заманлар Кәнчәнин.

05.11.2006



# Gəncənin

Adı olub dillərdə car Gəncənin,
Nəsibidir, bir ilk bahar Gəncənin.

Adamları bir-birindən mehriban,
Bəzəyidir hər gözəl yar Gəncənin.

Övladıdır Cavadxan tək oğullar,
İsrafil tək qəhrəmanlar Gəncənin.

Gözəlləşir gündən-günə siması,
Bağlarında var ərik, nar Gəncənin.

Uzaqlarda Kəpəz, Qoşqar görünür,
Hacıkəndi, Göy-gölü var Gəncənin.

Ələ düşməz gözəl payız toyları,
Şənlikləri könül oxşar Gəncənin.

Simax, sən də burda yazıb-yaratdın,
Gözü oldun bir zamanlar Gəncənin.

05.11.2006



# Бәнзәрди

Күл бағында бир гыз көрдүм, гөнчә күлә бәнзәрди,
Һәлә тәзә ачылырды, көј сүнбүлә бәнзәрди.

Јанындакы гызлар илә данышырды, күлүрдү,
Сифәтиндән нур јағырды ширин дилә бәнзәрди.

Мараг илә бахдым она, күлдү дүнја көзүмдә,
Тәзә-тәзә ешгә дүшән бир көнүлә бәнзәрди.

Бәлкә доғма бачысыјды мәләкләрин о дилбәр,
Гу гушуна охшајырды, гу гушуна бәнзәрди.

Симах, чалыш о гыз кими көзәл олсун әшарын,
Көзәллијин гијмәти јох, көһәр, лалә бәнзәрди.

07.01.2007

# Bənzərdi

Gül bağında bir qız gördüm, qönçə gülə bənzərdi,
Hələ təzə açılırdı, göy sünbülə bənzərdi.

Yanındakı qızlar ilə danışırdı, gülürdü,
Sifətindən nur yağırdı şirin dilə bənzərdi.

Maraq ilə baxdım ona, güldü dünya gözümdə,
Təzə-təzə eşqə düşən bir könülə bənzərdi.

Bəlkə doğma bacısıydı mələklərin o dilbər,
Qu quşuna oxşayırdı, qu quşuna bənzərdi.

Simax, çalış o qız kimi gözəl olsun əşarın,
Gözəlliyin qiyməti yox, göhər, lələ bənzərdi.

07.01.2007

# Ола билмәз

Мәһәббәтсиз бир үрәк, бир көнүл ола билмәз,
Раһијәсиз, әтирсиз гызылкүл ола билмәз.

Бахчаларда, бағларда ешитмә охујур гушлар,
Һәр охујан көзәл гуш, шән бүлбүл ола билмәз.

Јел әсәр, далғаланар тарлаларда сүнбүлләр,
Һәр сәпилән тохумдан бол сүнбүл ола билмәз.

Сысга чајлар бирләшиб төкүләрләр дәрјаја,
Нә хан Араз, нә дә Күр һеч вахт Нил ола билмәз.

Ај Симах, јер үзүндә нечә-нечә көлләр вар,
Фәгәт, һеч бири көзәл бил Көј-көл ола билмәз.

08.11.2006



# Ola bilməz

Məhəbbətsiz bir ürək, bir könül ola bilməz,
Rahiyəsiz, ətirsiz qızılgül ola bilməz.

Baxçalarda, bağlarda eşqlə oxuyur quşlar,
Hər oxuyan gözəl quş, şən bülbül ola bilməz.

Yel əsər, dalğalanar tarlalarda sünbüllər,
Hər səpilən toxumdan bol sünbül ola bilməz.

Sısqa çaylar birləşib tökülərlər dəryaya,
Nə xan Araz, nə də Kür heç vaxt Nil ola bilməz.

Ay Simax, yer üzündə neçə-neçə göllər var,
Fəqət, heç biri gözəl bil Göy-göl ola bilməz.

08.11.2006



# Истәр

*Азәрбајҹанын халг шаири*
*Габилин анадан олмасынын 80 иллији мунасибәти илә*

Шеримизин ифтихары, ај ағсаггал шаири,
Мүшфиг руһлу, Сабир ешгли бөјүк амал шаири.

Гәләминин гүдрәтинә чох адамлар һејрандыр,
Шер, сәнәт аләминин гоча гартал шаири.

Бир заманлар "Нәсими"ни јаздын бөјүк ешг илә,
Алыб кетди кечмишләрә фикир, хәјал шаири.

Ешг, мәһәббәт шеирләрин дүшүб ағыза-дилә,
Севки һәштад јашында да ејләр хошһал шаири.

Симахын да үрәјиндә мәһәббәтин вар сәнин,
Истәр јүз ил өмүр сүрсүн Габил тәк халг шаири.

02.08.2006



# İstər

*Azərbaycanın xalq şairi*
*Qabilin anadan olmasının 80 illiyi münasibəti ilə*

Şerimizin iftixarı, ay ağsaqqal şairi,
Müşfiq ruhlu, Sabir eşqli böyük amal şairi.

Qələminin qüdrətinə çox adamlar heyrandır,
Şer, sənət aləminin qoca qartal şairi.

Bir zamanlar "Nəsimi"ni yazdın böyük eşq ilə,
Alıb getdi keçmişlərə fikir, xəyal şairi.

Eşq, məhəbbət şeirlərin düşüb ağıza-dilə,
Sevgi həştad yaşında da eylər xoşhal şairi.

Simaxın da ürəyində məhəbbətin var sənin,
İstər yüz il ömür sürsün Qabil tək xalq şairi.

02.08.2006



# Шуарым мәним

Вәтәндән узаглара дүшүб кузарым мәним,
Чыхмыр бир ан јадымдан Бакым, Учарым мәним.

Гәлбимдә јува салмыш Оғуз, Губа, Гәбәлә,
Газахдыр, Ләнкәрандыр әһдим, илгарым мәним.

Сәсли-күјлү Кәнчәдән көнлүм ајры дүшәли,
Даим кәлир јадыма Көј-көл, Гошгарым мәним.

Күл-чичәкли Ағдашы рөјаларда көрүрәм,
Билмәм сәндән һарда вар Шәким, Гусарым мәним.

Фүзули, Шуша үчүн гәлбин көјнәјир, Симах,
Лачындыр, Кәлбәчәрдир дилдә шуарым мәним.

30.10.2006

# Şüarım mənim

Vətəndən uzaqlara düşüb güzarım mənim,
Çıxmır bir an yadımdan Bakım, Ucarım mənim.

Qəlbimdə yuva salmış Oğuz, Quba, Qəbələ,
Qazaxdır, Lənkərandır əhdim, ilqarım mənim.

Səsli-küylü Gəncədən könlüm ayrı düşəli,
Daim gəlir yadıma Göy-göl, Qoşqarım mənim.

Gül-çiçəkli Ağdaşı röyalarda görürəm,
Bilməm səndən harda var Şəkim, Qusarım mənim.

Füzuli, Şuşa üçün qəlbin göynəyir, Simax,
Laçındır, Gəlbəcərdir dildə şüarım mənim.

30.10.2006

# Чаванлыг

Еј дост! Јәгин билирсән, бир немәтдир чаванлыг,
Дағы дағ үстә гојан күч-гүввәтдир чаванлыг.

Һәр оғлана, һәр гыза танры бәхш ејләр ону,
Нә пулдур, нә дөвләтдир, сәадәтдир чаванлыг.

Меһдиләр, һәзиләрдир, гәһрәман Кәрајлардыр,
Доғма јурда мәһәббәт, шүчаәтдир чаванлыг.

Ахтарма, һарајлама, кери дөнән дејилдир,
Инсанлыға зинәтдир, ләјагәтдир чаванлыг.

Симах Шејда гочалыб әлдән дүшмүсән даһа,
Сәндән дә узаг кәзир нә мүддәтдир чаванлыг.

14.10.2006



# Cavanlıq

Ey dost! Yəqin bilirsən, bir nemətdir cavanlıq,
Dağı dağ üstə qoyan güc-qüvvətdir cavanlıq.

Hər oğlana, hər qıza tanrı bəxş eylər onu,
Nə puldur, nə dövlətdir, səadətdir cavanlıq.

Mehdilər, Həzilərdir, qəhrəman Gəraylardır,
Doğma yurda məhəbbət, şücaətdir cavanlıq.

Axtarma, haraylama, geri dönən deyildir,
İnsanlığa zinətdir, ləyaqətdir cavanlıq.

Simax Şeyda qocalıb əldən düşmüsən daha,
Səndən də uzaq gəzir nə müddətdir cavanlıq.

14.10.2006



# Дедиләр

О јар сәни гәлбән севир,- дедиләр,
Ешгинә вер бир аз фикир,- дедиләр.

Чамалына бахдым көзәл дилбәрин,
Кет јериндә отур, ај пир,- дедиләр.

Хиффәтини чәкдим-чәкдим чананын,
Чох да фикир етмә, шаир,- дедиләр.

Гәзәлләрдә вәсф ејләдим о јары,
Мәнә Ваһид, мәнә Закир,- дедиләр.

Симах Шејда, сәни чаван сахлајан,
Тәмиз ешгдир, мәһәббәтдир,- дедиләр.

07.11.2006



# Dedilər

O yar səni qəlbən sevir, - dedilər,
Eşqinə ver bir az fikir,- dedilər.

Camalına baxdım gözəl dilbərin,
Get yerində otur, ay pir,- dedilər.

Xiffətini çəkdim-çəkdim cananın,
Çox da fikir etmə, şair,- dedilər.

Qəzəllərdə vəsf eylədim o yarı,
Mənə Vahid, mənə Zakir,- dedilər.

Simax Şeyda, səni cavan saxlayan,
Təmiz eşqdir, məhəbbətdir,- dedilər.

07.11.2006



# Аздыр бу күн

Һәлә ачылмајыбдыр дүнјанын чох сирләри,
Алимләр чалышырлар узун иллөрдән бәри.

Көјләри фәтһ етмәјә аз чох наил олмушуг,
Анҹаг һәлә охуја билмирик фикирләри.

Күндән-күнә чохалыр хәстәлијин адлары,
Тапылан дәрманларын чох да дејил кәсәри.

Дәфинәләр кизләниб јерин алт гатларында,
Бу дүнјанын онлардан јохдур хәбәр-әтәри.

Һәлә бизи көзләјир јени-јени кәшфләр,
Габагламаг лазымдыр кәләҹәк әсрләри.

Симах Шејда, шеириниз фәтһ етсә дә гәлбләри,
Аздыр бу күн Вурғун тәк, Сабир тәк шаирләри.

06.11.2006

# Azdır bu gün

Hələ açılmayıbdır dünyanın çox sirləri,
Alimlər çalışırlar uzun illərdən bəri.

Göyləri fəth etməyə az çox nail olmuşuq,
Ancaq hələ oxuya bilmirik fikirləri.

Gündən-günə çoxalır xəstəliyin adları,
Tapılan dərmanların çox da deyil kəsəri.

Dəfinələr gizlənib yerin alt qatlarında,
Bu dünyanın onlardan yoxdur xəbər-ətəri.

Hələ bizi gözləyir yeni-yeni kəşflər,
Qabaqlamaq lazımdır gələcək əsrləri.

Simax Şeyda, şeiriniz fəth etsə də qəlbləri,
Azdır bu gün Vurğun tək, Sabir tək şairləri.

06.11.2006

# Ашыб-дашсын севинчин

Саги, долдур бадәни, меј вер, һәвәслә ичим,
Мән дә һал әһли олум, гызышсын бир аз ичим.

Бу күн севдијим гызын көрүшүнә кедәчәм,
Она сөјләмәк үчүн ән көзәл сөзләр сечим.

Дост-таныш гынар мәни әлимдән версәм ону,
Белә көзәл чананы ким истәмәз, севмәз ким.

Саги, мејин меј олсун, руһландырсын гәлбими,
Јар јолунда разыјам ширин чанымдан кечим.

Симах, күлкүн шәрабдан ич, сәрхош олма анчаг,
Күлсүн арзу, диләјим, ашыб-дашсын севинчим.

12.11.2006



# Aşıb-daşsın sevincin

Saqi, doldur badəni, mey ver, həvəslə içim,
Mən də hal əhli olum, qızışsın bir az içim.

Bu gün sevdiyim qızın görüşünə gedəcəm,
Ona söyləmək üçün ən gözəl sözlər seçim.

Dost-tanış qınar məni əlimdən versəm onu,
Belə gözəl cananı kim istəməz, sevməz kim.

Saqi, meyin mey olsun, ruhlandırsın qəlbimi,
Yar yolunda razıyam şirin canımdan keçim.

Simax, gülgün şərabdan iç, sərxoş olma ancaq,
Gülsün arzu, diləyim, aşıb-daşsın sevincim.

12.11.2006



# Көзләри

Дејирләр ки, о јарын чан аландыр көзләри,
Үрәкләрә мәһәббәт, ешг саландыр көзләри.

Кәзиб тапдым дилбәри Хәзәрин саһилиндә,
Көрдүм һәгигәтән дә гәлб чаландыр көзләри.

Кәлиб-кечән чаванлар ешглә бахырды она,
Отуруб тахт үстүндә бир султандыр көзләри.

Аллаһ, өзүн сахла кәл белә афәти-чаны,
Онун нурлу, ишыглы кәшкәшандыр көзләри.

Симах Шејда, һәр көзәл бу көзәлә тај олмаз,
Тәлатүмлү бир дәниз, бир үммандыр көзләри.

15.11.2006



# Gözləri

Deyirlər ki, o yarın can alandır gözləri,
Ürəklərə məhəbbət, eşq salandır gözləri.

Gəzib tapdım dilbəri Xəzərin sahilində,
Gördüm həqiqətən də qəlb çalandır gözləri.

Gəlib-keçən cavanlar eşqlə baxırdı ona,
Oturub taxt üstündə bir sultandır gözləri.

Allah, özün saxla gəl belə afəti-canı,
Onun nurlu, işıqlı kəşkəşandır gözləri.

Simax Şeyda, hər gözəl bu gözələ tay olmaz,
Təlatümlü bir dəniz, bir ümmandır gözləri.

15.11.2006



# Нефтимиз

Јүз илләрдир сәһәр-ахшам фантан вурур нефтимиз,
Севиндирир үрәкләри бүсат гурур нефтимиз.

Бакы-Чејһан нефт кәмәри, әсрин бөјүк һагг сәси,
Өмрүмүзә, күнүмүзә һеј сачыр нур нефтимиз.

Хәзәрин алт гатындадыр гара гызыл јатағы,
Әмәксевәр инсанлары едир мәшһур нефтимиз.

Јахын-узаг өлкәләри кәзир шаны-шөһрәти,
Јурдумузун кешијиндә мөһкәм дурур нефтимиз.

Симах Шејда, бәд нәзәрдән Аллаһ сахласын ону,
Дост елләрдән кечиб кедир мәғрур-мәғрур нефтимиз.

21.11.2006

# Neftimiz

Yüz illərdir səhər-axşam fantan vurur neftimiz,
Cevindirir ürəkləri büsat qurur neftimiz.

Bakı-Ceyhan neft kəməri, əsrin böyük haqq səsi,
Ömrümüzə, günümüzə hey saçır nur neftimiz.

Xəzərin alt qatındadır qara qızıl yatağı,
Əməksevər insanları edir məşhur neftimiz.

Yaxın-uzaq ölkələri gəzir şanı-şöhrəti,
Yurdumuzun keşiyində möhkəm durur neftimiz.

Simax Şeyda, bəd nəzərdən Allah saxlasın onu,
Dost ellərdən keçib gedir məğrur-məğrur neftimiz.

21.11.2006

# Нејләрәм башга јары

Күләк вуруб дағыдыр зүлфүнә чәк шанәни,
Гојма алышыб јансын атәшдә пәрванәни.

Мej әhлијлә отуруб вур бадәни бадәjә,
Анчаг сәрхош олмамыш тәрк еjлә меjханәни.

Өз јерини hәјатда билмәлидир hәр инсан,
Ешг, мәhәббәт јашадыр Мәчнун тәк дивәнәни.

Сән өзүн дә бир күлсән, еj көнлүмүн hәмдәми,
Нејнирсән гызылкүлү, јасәмәни, нанәни.

Мөчүзәјлә долудур јер үзү баштдан-баша,
Мин еjләјән Худадыр, бир дәни, бир данәни.

Симах тәк гәзәлханын меjли гонубдур сәнә,
Нејләјирәм бир башга күл үзлү чананәни.

29.11.2006



# Neylərəm başqa yarı

Külək vurub dağıdır zülfünə çək şanəni,
Qoyma alışıb yansın atəşdə pərvanəni.

Mey əhliylə oturub vur badəni badəyə,
Ancaq sərxoş olmamış tərk eylə meyxanəni.

Öz yerini həyatda bilməlidir hər insan,
Eşq, məhəbbət yaşadır Məcnun tək divanəni.

Sən özün də bir gülsən, ey könlümün həmdəmi,
Neynirsən qızılgülü, yasəməni, nanəni.

Möcüzəylə doludur yer üzü başdan-başa,
Min eyləyən Xudadır, bir dəni, bir danəni.

Simax tək qəzəlxanın meyli qcnubdur sənə,
Neyləyirəm bir başqa gül üzlü cananəni.

29.11.2006



# Даньшанда бахышлар

Риггэтэ кэлир үрэк, даньшанда бахышлар,
Мэһэббэт ачыр чичэк, даньшанда бахышлар.

Ики гэлбэ од дүшүр, алов дүшүр бир анда,
Күлүр мин арзу дилэк, даньшанда бахышлар.

Нэ дил даныша билир, нэ дэ тэрпэнир додаг,
Үз гызарыр лалэ тэк, даньшанда бахышлар.

Гыш дөнүб баһар олур, ачыр күллэр, чичэклэр,
Гэлблэрдэ чахыр шимшэк, даньшанда бахышлар.

Симах Шеjда, күн чыхыб алэм нура бојаныр,
Үзэ күлүр кэлэчэк даньшанда бахышлар.

28.11.2006



# Danışanda baxışlar

Riqqətə gəlir ürək, danışanda baxışlar,
Məhəbbət açır çiçək, danışanda baxışlar.

İki qəlbə od düşür, alov düşür bir anda,
Gülür min arzu dilək, danışanda baxışlar.

Nə dil danışa bilir, nə də tərpənir dodaq,
Üz qızarır lalə tək, danışanda baxışlar.

Qış dönüb bahar olur, açır güllər, çiçəklər,
Qəlblərdə çaxır şimşək, danışanda baxışlar.

Simax Şeyda, gün çıxıb aləm nura boyanır,
Üzə gülür gələcək danışanda baxışlar.

28.11.2006



# Бу күн

Күлүмсәди мәним дә үзүм нәһајәт бу күн,
Диллэндирди гәлбими севки-мәһәббәт бу күн.

Јарым деди: - Елчиләр кәлсин күнү бу күндән,
Нә јахшы ки, гапымы дөјдү сәадәт бу күн.

Һәјәчаным јох олду, азад бир гуш кимијәм,
Узаглашды башымдан һәр дәрди мөһнәт бу күн.

Ганадым олса иди шадлығымдан учардым,
Нә фәрәһли сөз деди, о назлы афәт бу күн.

Истәрәм тарихләрә дүшсүн бу хош анларым,
Гәлбини верди јара Симах әманәт бу күн.

10.11.2006

# Bu gün

Gülümsədi mənim də üzüm nəhayət bu gün,
Dilləndirdi qəlbimi sevgi-məhəbbət bu gün.

Yarım dedi:- Elçilər gəlsin günü bu gündən,
Nə yaxşı ki, qapımı döydü səadət bu gün.

Həyəcanım yox oldu, azad bir quş kimiyəm,
Uzaqlaşdı başımdan hər dərdi möhnət bu gün.

Qanadım olsa idi şadlığımdan uçardım,
Nə fərəhli söz dedi, o nazlı afət bu gün.

İstərəm tarixlərə düşsün bu xoş anlarım,
Qəlbini verdi yara Simax əmanət bu gün.

10.11.2006

# Булудлар

Нә өртмусүз көј үзүнү сәһәр-сәһәр, булудлар?
Јағыш олуб јағачагсыз инди мәкәр, булудлар?

Кимдән хәбәр тутмусунуз мәним әрзи-һалымдан?
Ағламагмы истәйирсиз мәндән бетәр, булудлар?

О јар атыб кетди мәни бир сөз, филан демәмиш,
Үзүр шаир үрәјими гүссә, кәдәр, булудлар.

Һәлә белә вәфасызлыг көрмәјибдир бир кимсә,
Истәјирсиз бу дәрдими билсин бәшәр, булудлар?

Симах Шеjда, чәфакеш бир ашиги-зар олубсан,
Әлбәт бир күн олар пешман о сәнубәр, булудлар.

14.09.2006



# Buludlar

Nə örtmüsüz göy üzünü səhər-səhər, buludlar?
Yağış olub yağacaqsız indi məgər, buludlar?

Kimdən xəbər tutmusunuz mənim ərzi-halımdan?
Ağlamaqmı istəyirsiz məndən betər, buludlar?

O yar atıb getdi məni bir söz, filan deməmiş,
Üzür şair ürəyimi qüssə, kədər, buludlar.

Hələ belə vəfasızlıq görməyibdir bir kimsə,
İstəyirsiz bu dərdimi bilsin bəşər, buludlar?

Simax Şeyda, cəfakeş bir aşiqi-zar olubsan,
Əlbət bir gün olar peşman o sənubər, buludlar.

14.09.2006



# Јохдур ондан гијмәтли

Севәнләр јахшы билир көздә олур мәһәббәт,
Гәлби дилә кәтирир, верир чана тәравәт.

Севәнләр јахшы билир һәјат олмаз севкисиз,
Ешг илә чана кәләр күләр үзә тәбиәт.

Севәнләр јахшы билир вәфа, сәдагәт нәдир,
Нәсиб олмаз дөнүјә, биилгара сәадәт.

Севәнләр јахшы билир үрәк дөзмәз һәсрәтә,
Вүсали-јара јетмәк верәр гола күч-гүввәт.

Симах, севиб-севилмәк немәтидир һәјатын,
Јохдур ондан гијмәтли бу дүнјада вар-дөвләт.

07.12.2006



# Yoxdur ondan qiymətli

Sevənlər yaxşı bilir gözdə olur məhəbbət,
Qəlbi dilə gətirir, verir cana təravət.

Sevənlər yaxşı bilir həyat olmaz sevgisiz,
Eşq ilə cana gələr gülər üzə təbiət.

Sevənlər yaxşı bilir vəfa, sədaqət nədir,
Nəsib olmaz dönüyə, biilqara səadət.

Sevənlər yaxşı bilir ürək dözməz həsrətə,
Vüsali-yara yetmək verər qola güc-qüvvət.

Simax, sevib-sevilmək nemətidir həyatın,
Yoxdur ondan qiymətli bu dünyada var-dövlət.

07.12.2006



# Еjләмәсин

О јара сөјләјин сиз, бу гәдәр наз еjләмәсин,
Мәнә олан ешгини амандыр аз еjләмәсин.

Үрәјим јуха кими күндән-күнә назик олур,
Гәм илә, гүссә илә көнлүмү саз еjләмәсин.

Мән онун ешги илә јашајырам бу чаһанда,
Өмрүмү гыш, өмрүнүсә чичәкли јаз еjләмәсин.

Мәһәббәтин јолунда даһа бәсдир гәм јемәјим,
Ешгә дүшән чанымы јарым насаз еjләмәсин.

Симахын бир дил билмәз јар артырыр миннәтини,
Гој она көнүл ачыб чох илтимас еjләмәсин.

13.08.2006

# Eyləməsin

O yara söyləyin siz, bu qədər naz eyləməsin,
Mənə olan eşqini amandır az eyləməsin.

Ürəyim yuxa kimi gündən-günə nazik olur,
Qəm ilə, qüssə ilə könlümü saz eyləməsin.

Mən onun eşqi ilə yaşayıram bu cahanda,
Ömrümü qış, ömrünüsə çiçəkli yaz eyləməsin.

Məhəbbətin yolunda daha bəsdir qəm yeməyim,
Eşqə düşən canımı yarım nasaz eyləməsin.

Simaxın bir dil bilməz yar artırır minnətini,
Qoy ona könül açıb çox iltimas eyləməsin.

13.08.2006

# Олмусан

Ешитдим ки, башгасына aj гыз, чанан олмусан,
Атылыб сар гучағына рүсваји-чан олмусан.

Халг ичиндә кәзә билмир, ев күнчүндә галмысан,
Кечә-күндүз аh чәкәрәк үрәји ган олмусан.

Истәјирсән баш көтүрүб узаглара кедәсән,
Дағылыбдыр ханиманын башга инсан олмусан.

Вәфасызлыг китабына сәнин адын дүшәли,
Хејли вахтдыр үзү күлмәз, көзү кирјан олмусан.

Симах Шејда, бивәфалыг бир бәладыр чаһанда,
Сән ки, она нифрәт едән, ондан гачан олмусан.

13.11.2006



# Olmusan

Eşitdim ki, başqasına ay qız, canan olmusan,
Atılıb sar qucağına rüsvayi-can olmusan.

Xalq içində gəzə bilmir, ev küncündə qalmısan,
Gecə-gündüz ah çəkərək ürəyi qan olmusan.

İstəyirsən baş götürüb uzaqlara gedəsən,
Dağılıbdır xanimanın başqa insan olmusan.

Vəfasızlıq kitabına sənin adın düşəli,
Xeyli vaxtdır üzü gülməz, gözü giryan olmusan.

Simax Şeyda, bivəfalıq bir bəladır cahanda,
Sən ki, ona nifrət edən, ondan qaçan olmusan.

13.11.2006



# Көнлүмү талады

Бир көзәлин бахышлары јаралады көнлүмү,
Елә бил ки, бычаг кәсиб паралады көнлүмү.

Амандыр кәл белә бахма, инсаф ејлә сөјләдим,
Дүман кәлди, булуд алды гаралады көнлүмү.

Тапдым о көзәл дилбәрдә ахтардығым ешги мән,
Анҹаг ҹана гәсд ејләди, јаралады көнлүмү.

Нә јахшы ки, имдадыма чатды бөјүк кәләчәк,
Фикир, хәјал дүнјасындан аралады көнлүмү.

Ешг јолунда ҹәфа чәкмәк ашигләрин ишидир,
Симах Шејда, бир дилрүба јар талады көнлүмү.

01.08.2006



# Könlümü taladı

Bir gözəlin baxışları yaraladı könlümü,
Elə bil ki, bıçaq kəsib paraladı könlümü.

Amandır gəl belə baxma, insaf eylə söylədim,
Düman gəldi, bulud aldı qaraladı könlümü.

Tapdım o gözəl dilbərdə axtardığım eşqi mən,
Ancaq cana qəsd eylədi, yaraladı könlümü.

Nə yaxşı ki, imdadıma çatdı böyük gələcək,
Fikir, xəyal dünyasından araladı könlümü.

Eşq yolunda cəfa çəkmək aşiqlərin işidir,
Simax Şeyda, bir dilrüba yar taladı könlümü.

01.08.2006



# Пәришан - пәришан

Нә дурмусан бојну бүкүк сән пәришан-пәришан,
Алыб јенә башым үстүн чән пәришан-пәришан.

Һеч вахт сәни көрмәмишдим беләгәмли, гүссәли,
Һәмишә ол дәрд-кәдәрдән кен пәришан-пәришан.

Јарашмајыр сән көзәлә фикир, хәјал ејләмәк,
Назәнинләр олсун кәрәк шән пәришан-пәришан.

Аз галыр ки, дуруб алым һәр дәрдини, гаданы,
Бөлүм гәми сәнин илә тән пәришан-пәришан.

Симах Шејда, көзәлләрә мәһәббәти бол ејлә,
Даһа кәзиб-долашмајым мән пәришан-пәришан.

11.08.2006

# Pərişan-pərişan

Nə durmusan boynu bükük sən pərişan-pərişan,
Alıb yenə başım üstün çən pərişan-pərişan.

Heç vaxt səni görməmişdim belə qəmli, qüssəli,
Həmişə ol dərd-kədərdən gen pərişan-pərişan.

Yaraşmayır sən gözələ fikir, xəyal eyləmək,
Nazəninlər olsun gərək şən pərişan-pərişan.

Az qalır ki, durub alım hər dərdini, qadanı,
Bölüm qəmi sənin ilə tən pərişan-pərişan.

Simax Şeyda, gözəllərə məhəbbəti bol eylə,
Daha gəzib-dolaşmayım mən pərişan-pərişan.

11.08.2006

# Отурурам гырагда

Бир заманлар јар кәзиб бу бағчада, бу бағда,
Онун ајаг изи вар бу сәфалы торпагда.

Бурда ачдым гәлбими илк дәфә о јара мән,
Сөһбәт етдим хејли вахт севки, мәһәббәт һагда.

Күнләрин бир күнүндә севкилими итирдим,
Чох ахтардым, чох кәздим јахынларда, узагда.

О назәнин көзәлдән тута билмәдим хәбәр,
Аһ, илк севким, илк ешгим, күнүм кечир фәрагда.

Һәр бу бағa кәләндә хәјаллара далырам,
Отурурсан, ај Симах, чамаатдан гырагда.

22.11.2006



# Otururam qıraqda

Bir zamanlar yar gəzib bu bağçada, bu bağda,
Onun ayaq izi var bu səfalı torpaqda.

Burda açdım qəlbimi ilk dəfə o yara mən,
Söhbət etdim xeyli vaxt sevgi, məhəbbət haqda.

Günlərin bir günündə sevgilimi itirdim,
Çox axtardım, çox gəzdim yaxınlarda, uzaqda.

O nazənin gözəldən tuta bilmədim xəbər,
Ah, ilk sevgim, ilk eşqim, günüm keçir fəraqda.

Hər bu bağa gələndə xəyallara dalıram,
Oturursan, ay Simax, camaatdan qıraqda.

22.11.2006



# Бу кәлән јара бахын

Бу кәлән јара бахын бәзәниб башдан-ајаға,
Дарајыб телләрини сығал вурубдур јанаға.

Үзүндә, додағында көрүнүр гара халлар,
Бәнзәр алышыб јанан шөлә сачан чыраға.

Көрән һансы инсана севкили дилдар олачаг?
Һансы бәхтәвәр илә верәчәк додаг-додага.

Отуруб-дурачагдыр әдәб илә, әркан илә,
Јарыны салмајачаг һеч заман, һеч вахт фәраға.

Назәнин көзәлләрә бөјүкдүр ешги Симахын,
Јазачаг шеир, гәзәл һәр көзәл биллур-бухаға.

10.08.2006



# Bu gələn yara baxın

Bu gələn yara baxın bəzənib başdan-ayağa,
Darayıb tellərini sığal vurubdur yanağa.

Üzündə, dodağında görünür qara xallar,
Bənzər alışıb yanan şölə saçan çırağa.

Görən hansı insana sevgili dildar olacaq?
Hansı bəxtəvər ilə verəcək dodaq-dodaqa.

Oturub-duracaqdır ədəb ilə, ərkan ilə,
Yarını salmayacaq heç zaman, heç vaxt fərağa.

Nazənin gözəllərə böyükdür eşqi Simaxın,
Yazacaq şeir, qəzəl hər gözəl billur-buxağa.

10.08.2006



# Ешгимиз

Ај дилруба, кәнчдир һәлә ешгимиз,
Күл ачачаг бундан белә ешгимиз.

Чаванлара бөјүк мәктәб олачаг,
Бәнзәјәчәк чошғун селә ешгимиз.

Јолумузда мајак кими јаначаг,
Сачачагдыр һәр күн шөлә ешгимиз.

Тапылачаг бизә гибтә едән дә,
Јол кәләчәк бәмдән зилә ешгимиз.

Илһам верир Симах сәнә мәһәббәт,
Дүшәчәкдир дилдән-дилә ешгимиз.

12.08.2006

# Eşqimiz

Ay dilruba, gəncdir hələ eşqimiz,
Gül açacaq bundan belə eşqimiz.

Cavanlara böyük məktəb olacaq,
Bənzəyəcək coşğun selə eşqimiz.

Yolumuzda mayak kimi yanacaq,
Saçacaqdır hər gün şölə eşqimiz.

Tapılacaq bizə qibtə edən də,
Yol gələcək bəmdən zilə eşqimiz.

İlham verir Simax sənə məhəbbət,
Düşəcəkdir dildən-dilə eşqimiz.

12.08.2006

# Бахын

О дилбәрин көзүндәки ешгә, мәһәббәтә бахын,
Јолумдан ејләди мәни, кәтирди һејрәтә бахын.

Дејәсән бир белә чанла үз-үзә кәлмәмишдим һеч,
Көрдүм кетмир ајагларым ешгдәки гүввәтә бахын.

Јоха чыхды гәлб евимин гәм-гүссәси бирдән-бирә,
Күнүн-күнорта чағында Худадан гисмәтә бахын.

Ејваһ, бу одлу бахышлар шам кими әридәр мәни,
Кәтирди о үркәк чејран гәлбими риггәтә бахын.

Симахын гәлби вурур исми-пүнһанын ешгилә,
Гисмәт олса бир күн дејәр: "О көзәл афәтә бахын".

17.08.2006



# Baxın

O dilbərin gözündəki eşqə, məhəbbətə baxın,
Yolumdan eylədi məni, gətirdi heyrətə baxın.

Deyəsən bir belə canla üz-üzə gəlməmişdim heç,
Gördüm getmir ayaqlarım eşqdəki qüvvətə baxın.

Yoxa çıxdı qəlb evimin qəm-qüssəsi birdən-birə,
Günün-günorta çağında Xudadan qismətə baxın.

Eyvah, bu odlu baxışlar şam kimi əridər məni,
Gətirdi o ürkək ceyran qəlbimi riqqətə baxın.

Simaxın qəlbi vurur ismi-pünhanın eşqilə,
Qismət olsa bir gün deyər: "O gözəl afətə baxın".

17.08.2006



# Узагларда олсан да дөз

Наз-гәмзәли көзәлләрин дөзәммирәм мән назына,
Таб кәтирә билмәјирәм онларын һәр авазына.

Һәр чалынан һава илә ојнамағы севмир үрәк,
Һөрмәт, иззәт бәсләјирәм, анчаг ешгин һавасына.

Мәнә галиб кәлә билмәз јер үзүнүн дәрди, сәри,
Вурулмушам Лејли јарын чәннәтмәкан Губасына.

Фикир, хәјал дүнјасында һәр күн онун јанындајам,
Бахмагдан һеч дојмур үрәк көзләринин ајнасына.

Симах исми-пүнһаныны тез-тез кәтир сән јадына,
Узагларда олсан да дөз, һәм гышына, һәм јазына.

18.08.2006



# Uzaqlarda olsan da döz

Naz-qəmzəli gözəllərin dözəmmirəm mən nazına,
Tab gətirə bilməyirəm onların hər avazına.

Hər çalınan hava ilə oynamağı sevmir ürək,
Hörmət, izzət bəsləyirəm, ancaq eşqin havasına.

Mənə qalib gələ bilməz yer üzünün dərdi, səri,
Vurulmuşam Leyli yarın cənnətməkan Qubasına.

Fikir, xəyal dünyasında hər gün onun yanındayam,
Baxmaqdan heç doymur ürək gözlərinin aynasına.

Simax ismi-pünhanını tez-tez gətir sən yadına,
Uzaqlarda olsan da döz, həm qışına, həm yazına.

18.08.2006



# Кечәл Һәмзә

Гыратын дальынча кәлди Чәнлибелә кечәл Һәмзә,
Әл атды нечә кәләјә, фитнәфелә кечәл Һәмзә.

Чох өлчдү-бичди, Гыраты јол тапмады гачыртмаға,
Ахырда Дураты алыб дөнду јелә кечәл Һәмзә.

Короғлу олду хәбәрдар дәјирманда чатды она,
Бурда да ишләтди јенә кәләк, һијлә кечәл Һәмзә.

Алдатды гоч Короғлуну Гыраты көтүрүб гачды,
Кәтириб чыхартды ону башга елә кечәл Һәмзә.

Сиз еј һијләләр, кәләкләр! Дүрлү-дүрлү еј јаланлар,
Һәләрә наил олмады сизин илә кечәл Һәмзә.

Симах, фитнә-фәсад илә, әјриликлә јохдур аран,
Һәлә вардыр арамызда нечә белә кечәл Һәмзә.

17.10.2006

# Keçəl Həmzə

Qıratın dalınca gəldi Çənlibelə keçəl Həmzə,
Əl atdı neçə kələyə, fitnə-felə keçəl Həmzə.

Çox ölçdü-biçdi, Qıratı yol tapmadı qaçırtmağa,
Axırda Düratı alıb döndü yelə keçəl Həmzə.

Koroğlu oldu xəbərdar dəyirmanda çatdı ona,
Burda da işlətdi yenə kələk, hiylə keçəl Həmzə.

Aldatdı qoç Koroğlunu Qıratı götürüb qaçdı,
Gətirib çıxartdı onu başqa elə keçəl Həmzə.

Siz ey hiylələr, kələklər! Dürlü-dürlü ey yalanlar,
Nələrə nail olmadı sizin ilə keçəl Həmzə.

Simax, fitnə-fəsad ilə, əyriliklə yoxdur aran,
Hələ vardır aramızda neçə belə keçəl Həmzə.

17.10.2006

# Гашларын

Үрәјими чалды гара гашларын,
Һејран етди о ајпара гашларын.

Көзләримин габағында дајаныр,
Ај күл үзлүм, кетсән һара, гашларын.

Чох шаирләр сәни вәсф ејләјибдир,
Илһам верир сәнәткара гашларын.

Бәднәзәрин көзләриндән узаг ол,
Јохса кедәр фәналара гашларын.

Симах дејәр: - Ај зүлфләри бәнөвшә,
Охшар күлү-рәналара гашларын.

26.09.2006



# Qaşların

Ürəyimi çaldı qara qaşların,
Heyran etdi o aypara qaşların.

Gözlərimin qabağında dayanır,
Ay gül üzlüm, getsən hara, qaşların.

Çox şairlər səni vəsf eyləyibdir,
İlham verir sənətkara qaşların.

Bədnəzərin gözlərindən uzaq ol,
Yoxsa gedər fənalara qaşların.

Simax deyər: - Ay zülfləri bənövşə,
Oxşar gülü-rənalara qaşların.

26.09.2006



# Билмирәм

Бу нә ешгдир,нә севкидир, нә мәһәббәт билмирәм,
Нечин верир мәнә зүлүм вә әзијјәт билмирәм.

Каһ дејир кет, каһ да дејир севкили јар ол мәнә,
Кимә лазым, нәјә лазым бу сөз-сөһбәт билмирәм.

Ешг јолунда Кәрәм кими кечәр ашиг чанындан,
Гуртарачаг көрән һачан бу һекајәт билмирәм.

Әкәр Лејли сағ олсајды ону елчи јолллардым,
Нә дејәрди о афәтә бах бу афәт билмирәм.

Симах, ешгин дәрјасына чох баш вурма дәриндир,
Нә олачаг бу севданын сону фәгәт билмирәм.

24.08.2006



# Bilmirəm

Bu nə eşqdir,nə sevgidir, nə məhəbbət bilmirəm,
Neçin verir mənə zülüm və əziyyət bilmirəm.

Gah deyir get, gah da deyir sevgili yar ol mənə,
Kimə lazım, nəyə lazım bu söz-söhbət bilmirəm.

Eşq yolunda Kərəm kimi keçər aşiq canından,
Qurtaracaq görən haçan bu hekayət bilmirəm.

Əgər Leyli sağ olsaydı onu elçi yollardım,
Nə deyərdi o afətə bax bu afət bilmirəm.

Simax, eşqin dəryasına çox baş vurma dərindir,
Nə olacaq bu sevdanın sonu fəqət bilmirəm.

24.08.2006



# Пајызда

Төкүләр ағачларын јарпаглары пајызда,
Охшадар гызыл рәнкә торпаглары пајызда.

Күләк әсәр, мешәләр һәр тәрәфә сәс салар,
Саламлар јахынлары, узаглары пајызда.

Јенә тој-дүјүн сәси бүрүјәр ел-обаны,
Кур јанар шәнликләрин чыраглары пајызда.

Дағлар да өз донуну дәјишәр башдан-баша,
Азалар сәси-күјү јајлагларын пајызда.

Ваһидин көзәлләри артырар наз-гәмзәни,
Симах да бајрам еjләр көрсә јары пајызда.

03.09.2006

# Payızda

Tökülər ağacların yarpaqları payızda,
Oxşadar qızıl rəngə torpaqları payızda.

Külək əsər, meşələr hər tərəfə səs salar,
Salamlar yaxınları, uzaqları payızda.

Yenə toy-düyün səsi bürüyər el-obanı,
Gur yanar şənliklərin çıraqları payızda.

Dağlar da öz donunu dəyişər başdan-başa,
Azalar səsi-küyü yaylaqların payızda.

Vahidin gözəlləri artırar naz-qəmzəni,
Simax da bayram eylər görsə yarı payızda.

03.09.2006

# Көрдүм

Синәси үстүндә јарын бир чүт ләл-көвһәр көрдүм,
Санки булудлардан чыхан шөлә сачан гәмәр көрдүм.

Алды ағлымы, һушуму Мәчнуна тај етди мәни,
Көнлүмү мәфтун ејләди, бир хош зүлфү-әнбәр көрдүм.

Һара кетсә өзү илә апарды күл дәстәсини,
Субһә тәк налә чәкдим, гана дөндү чијәр көрдүм.

Көзәлләрдән чох дәрд чәкиб чәфакеш ашиги-зарлар,
Вәфада дөнүк кәсләри һәмишә дәрбәдәр көрдүм.

Симаха, көзәл чанлары мәһәббәт илә васф ејлә,
Сонра демә ки, гызларда һансы абы-көвсәр көрдүм.

02.10.2006



# Gördüm

Sinəsi üstünə yarın bir cüt ləl-gövhər gördüm,
Sanki buludlardan çıxan şölə saçan qəmər gördüm.

Aldı ağlımı, huşumu Məcnuna tay etdi məni,
Könlümü məftun eylədi, bir xoş zülfü-ənbər gördüm.

Hara getsə özü ilə apardı gül dəstəsini,
Sübhə tək nalə çəkdim, qana döndü ciyər gördüm.

Gözəllərdən çox dərd çəkib cəfakeş aşiqi-zarlar,
Vəfada dönük kəsləri həmişə dərbədər gördüm.

Simaxa, gözəl canları məhəbbət ilə vəsf eylə,
Sonra demə ki, qızlarda hansı abı-kövsər gördüm.

02.10.2006



# Мүнһенин көзәлләри

Кетмир көзүмдән бир ан Мүнһенин көзәлләри,
Адамы едир һејран Мүнһенин көзәлләри

Ишвәлидир, назлыдыр һәрәси бир-бириндән,
Үрәк чаландыр јаман Мүнһенин көзәлләри.

Бири инчә беллидир, бири чејран бахышлы,
Бири дә һури-гылман Мүнһенин көзәлләри.

Ширин-ширин күлүрләр бизим көзәлләр кими,
Чан гурбандыр сизә чан, Мүнһенин көзәлләри.

Симаха, гојмаз сәни раһат нәфәс аласан,
Һәр күн гаршына чыхан Мүнһенин көзәлләри.

21.09.2006



# Münhenin gözəlləri

Getmir gözümdən bir an Münhenin gözəlləri,
Adamı edir heyran Münhenin gözəlləri

İşvəlidir, nazlıdır hərəsi bir-birindən,
Ürək çalandır yaman Münhenin gözəlləri.

Biri incə bellidir, biri ceyran baxışlı,
Biri də huri-qılman Münhenin gözəlləri.

Şirin-şirin gülürlər bizim gözəllər kimi,
Can qurbandır sizə can, Münhenin gözəlləri.

Simaxa, qoymaz səni rahat nəfəs alasan,
Hər gün qarşına çıxan Münhenin gözəlləri.

21.09.2006



# Алман гызы

Күлә-күлә алдын башдан ағлымы сән, алман гызы,
Сејрләндим ешг төкүлән көзләриндән, алман гызы.

Нәсә дедин өз дилиндә баша дүшә билмәдим мән,
Гәһәрләндим, биһал олдум сөзләриндән, алман гызы.

Дүшүндүм ки, мәһәббәтли бахышлардыр ешгин күчү,
Көтүрмәдим нәзәрими нәзәриндән алман гызы.

Кәлдим алман торпағына көзүм шәфа тапсын деје,
Сәндә тапдым о шәфаны, о нуру мән, алман гызы.

Нә олајды һәр истәјим һәгигәтә дөнәјди каш,
Симах кәлиб Гарабағда кәзәјди шән, алман гызы.

09.08.2006

# Alman qızı

Gülə-gülə aldın başdan ağlımı sən, alman qızı,
Seyrləndim eşq tökülən gözlərindən, alman qızı.

Nəsə dedin öz dilində başa düşə bilmədim mən,
Qəhərləndim, bihal oldum sözlərindən, alman qızı.

Düşündüm ki, məhəbbətli baxışlardır eşqin gücü,
Götürmədim nəzərimi nəzərindən alman qızı.

Gəldim alman torpağına gözüm şəfa tapsın deyə,
Səndə tapdım o şəfanı, o nuru mən, alman qızı.

Nə olaydı hər istəyim həqiqətə dönəydi kaş,
Simax gəlib Qarabağda gəzəydi şən, alman qızı.

09.08.2006

# Арзулар

Инсан илә бир кәлибдир бу чаһана арзулар,
Үрәкләрдә јува салар кәләр чана арзулар.

Һара кетсән сәнин илә јол јолдашы олачаг,
Һәгигәтә дөнәчәкдир һандан-һана арзулар.

Үмид верәр көнүлләрә севмәз гәми, гүссәни,
Гојмаз сәни од көтүрә, аловлана арзулар.

Јер үзүнү күл-чичәкли чәннәт көрмәк истәјәр,
Хошбәхтлик дә истәр чандан һәр инсана арзулар.

Симах Шејда, үрәјиндә вардыр бир јар һәсрәти,
Каш ки, сәни чатдырајды о чанана арзулар.

23.08.2006



# Arzular

İnsan ilə bir gəlibdir bu cahana arzular,
Ürəklərdə yuva salar gələr cana arzular.

Hara getsən sənin ilə yol yoldaşı olacaq,
Həqiqətə dönəcəkdir handan-hana arzular.

Ümid verər könüllərə sevməz qəmi, qüssəni,
Qoymaz səni od götürə, alovlana arzular.

Yer üzünü gül-çiçəkli cənnət görmək istəyər,
Xoşbəxtlik də istər candan hər insana arzular.

Simax Şeyda, ürəyində vardır bir yar həsrəti,
Kaş ki, səni çatdıraydı o canana arzular.

23.08.2006



# Кәл барышаг

Көзәлим, инчиjиб кетмә, сән чанын, кәл барышаг,
Дөндәрмә көнлүмү гана, чананым кәл барышаг.

Нә дедим чевирдин мәндән үзүнү бирдән-бирә,
Амандыр гәм-гүссә чәкмә, меһрибаным, кәл барышаг.

Нә гәдәр истәрсән еjлә назыны, гәмзәни сән,
Амма һеч jерә тәләсмә, нөвчаваным, кәл барышаг.

Мәчбур еjләмә ашигин Кәрәм тәк дүшсүн чөлләрә,
Гоjма мәһәббәт одуна вахтсыз jаным, кәл барышаг.

Бирчә бусәнин jолунда һазырам чандан кечмәjә,
Разы олма ки, Симахын ахсын ганы, кәл барышаг.

05.10.2006



# Gəl barışaq

Gözəlim, inciyib getmə, sən canın, gəl barışaq,
Döndərmə könlümü qana, cananım gəl barışaq.

Nə dedim çevirdin məndən üzünü birdən-birə,
Amandır qəm-qüssə çəkmə, mehribanım, gəl barışaq.

Nə qədər istərsən eylə nazını, qəmzəni sən,
Amma heç yerə tələsmə, növcavanım, gəl barışaq.

Məcbur eyləmə aşiqin Kərəm tək düşsün çöllərə,
Qoyma məhəbbət oduna vaxtsız yanım, gəl barışaq.

Bircə busənin yolunda hazıram candan keçməyə,
Razı olma ki, Simaxın axsın qanı, gəl barışaq.

05.10.2006



# А илләр

Јенә кәнчлик чағларым дүшдү јада, а илләр,
Нечин о шән күнләрим кетди бада, а илләр.

Гуш кими јүнкүл идим, гачардым ора-бура,
Мәндән узаг кәзәрди һәр ган-гада, а илләр.

Шерә көнүл бағладым күнләрин бир күнүндә,
Шаир олмаг истәдим бу һәјатда, а илләр.

Арзум һәгигәт олду, күнәш күлдү үзүмә,
Чап олду китабларым нечә адда, а илләр.

Инди гоча вахтымын ихтијар чағындајам,
Гајғыларым түкәниб бир аз һәтта, а илләр.

Анчаг фикир, хәјалым һеј учур узаглара,
Вәтән һәсрәти чәкир Симах Шејда, а илләр.

27.08.2006

# A illər

Yenə gənclik çağlarım düşdü yada, a illər,
Neçin o şən günlərim getdi bada, a illər.

Quş kimi yüngül idim, qaçardım ora-bura,
Məndən uzaq gəzərdi hər qan-qada, a illər.

Şerə könül bağladım günlərin bir günündə,
Şair olmaq istədim bu həyatda, a illər.

Arzum həqiqət oldu, günəş güldü üzümə,
Çap oldu kitablarım neçə adda, a illər.

İndi qoca vaxtımın ixtiar çağındayam,
Qayğılarım tükənib bir az hətta, a illər.

Ancaq fikir, xəyalım hey uçur uzaqlara,
Vətən həsrəti çəkir Simax Şeyda, a illər.

27.08.2006

# Чал ашыг

Телли сазы кәл әлинә ал ашыг,
Сәсинә гат бир аз шәкәр, бал ашыг.

Оху ашыг Әләскәрдән, Аббасдан,
Дөрд бир јана хош бир һава сал ашыг.

Бу күн јарла чыхачағам кәзмәјә,
Көрәчәјәм ал јанагда хал, ашыг.

Атачағам субајлығын дашыны,
Верәчәјәм сәнә тирмә, шал ашыг.

Јол верәчәк бизә мешә, дағ,дәрә,
Нечә-нечә күл-чичәкли јал, ашыг.

Симах Шејда, мәһәббәтдә күчә бах,
Чал башына дөнүм сәнин, чал ашыг.

16.11.2006



# Çal aşıq

Telli sazı gəl əlinə al aşıq,
Səsinə qat bir az şəkər, bal aşıq.

Oxu aşıq Ələsgərdən, Abbasdan,
Dörd bir yana xoş bir hava sal aşıq.

Bu gün yarla çıxacağam gəzməyə,
Görəcəyəm al yanaqda xal, aşıq.

Atacağam subaylığın daşını,
Verəcəyəm sənə tirmə, şal aşıq.

Yol verəcək bizə meşə, dağ,dərə,
Neçə-neçə gül-çiçəkli yal, aşıq.

Simax Şeyda, məhəbbətdə gücə bax,
Çal başına dönüm sənin, çal aşıq.

16.11.2006



# Дан ағаранда

Тәбиәтин сејринә чыхдым дан ағаранда,
Гызармыш үфүгләрә бахдым дан ағаранда.

Шеһ үстә ајагјалын кәздим чөлү, чәмәни,
Чичәк дәриб синәмә тахдым дан ағаранда.

Көзләримин өнүнә кәтирдим дилбәрими,
Шимшәкләрә гошулуб чахдым дан ағаранда.

Јандым Гејсин, Кәрәмин, Шејх Сәнанын һалына,
Көзләримин јашыны сыхдым дан ағаранда.

Симах, чаһан мүлкүнүн аз дејил дәрди, сәри,
Үрәјими јандырыб-јахдын дан ағаранда.

28.11.2006



# Dan ağaranda

Təbiətin seyrinə çıxdım dan ağaranda,
Qızarmış üfüqlərə baxdım dan ağaranda.

Şeh üstə ayaqyalın gəzdim çölü, çəməni,
Çiçək dərib sinəmə taxdım dan ağaranda.

Gözlərimin önünə gətirdim dilbərimi,
Şimşəklərə qoşulub çaxdım dan ağaranda.

Yandım Qeysin, Kərəmin, Şeyx Sənanın halına,
Gözlərimin yaşını sıxdım dan ağaranda.

Simax, cahan mülkünün az deyil dərdi, səri,
Ürəyimi yandırıb-yaxdın dan ağaranda.

28.11.2006



# Мәһәббәтин јолунда

Гәмү-һичран чәкирәм вәсли-јарын јолунда,
Бир гаракөз назәнин бир дилрүба јолунда.

Сәма долуб бошалыр нәләр чәкир тәбиәт,
Бәнөвшәли, нәркизли илк баһарын јолунда.

Бағбан ешглә чалышыр, алын тәри ахыдыр,
Инсанлара руһ верән чәмәнзарын јолунда.

Дүнјада чох адамлар кечди ширин чанындан,
Дүз илгарын јолунда, етибарын јолунда.

Ојун-ојунчаг дејил, Симах, севки, мәһәббәт,
Сән дә кеч өз чанындан вәфадарын јолунда.

24.11.2006

# Məhəbbətin yolunda

Qəmü-hicran çəkirəm vəsli-yarın yolunda,
Bir qaragöz nazənin bir dilrüba yolunda.

Səma dolub boşalır nələr çəkir təbiət,
Bənövşəli, nərgizli ilk baharın yolunda.

Bağban eşqlə çalışır, alın təri axıdır,
İnsanlara ruh verən çəmənzarın yolunda.

Dünyada çox adamlar keçdi şirin canından,
Düz ilqarın yolunda, etibarın yolunda.

Oyun-oyuncaq deyil, Simax, sevgi, məhəbbət,
Sən də keç öz canından vəfadarın yolunda.

24.11.2006

# Ағалар

*Азәрбајҹанын әмәкдар артисти*
*Ағалар Бајрамова итһаф едирәм*

Һәлә дә вар башымда севда һавасы, Ағалар!
Ҹана ҹан мәлһәмидир ешгин сәфасы, Ағалар!

Ешидәндә сәсини риггәтә кәлир үрәјим,
Азалыр гәлб евимин ҹөврү-ҹәфасы, Ағалар!

Охујурсан һәр шери бөјүк мәһәббәт илә сән,
Халг галыр сәнәтиндән һәр заман разы, Ағалар!

Јашасын сәнин кими шанлы вәтән оғуллары,
Күлүшсүз бу һәјатын јохдур мәнасы, Ағалар!

Гүрбәтдә Симах Шејда тез-тез ешидир сәсини,
Һура һәсрәт көзүнүн артыр шәфасы, Ағалар!

21.08.2006



# Ağalar

*Azərbaycanın əməkdar artisti*
*Ağalar Bayramova ithaf edirəm*

Hələ də var başımda sevda havası, Ağalar!
Cana can məlhəmidir eşqin səfası, Ağalar!

Eşidəndə səsini riqqətə gəlir ürəyim,
Azalır qəlb evimin cövrü-cəfası, Ağalar!

Oxuyursan hər şeri böyük məhəbbət ilə sən,
Xalq qalır sənətindən hər zaman razı, Ağalar!

Yaşasın sənin kimi şanlı vətən oğulları,
Gülüşsüz bu həyatın yoxdur mənası, Ağalar!

Qürbətdə Simax Şeyda tez-tez eşidir səsini,
Nura həsrət gözünün artır şəfası, Ağalar!

21.08.2006



# Дүшсәм дә туфана

Хејли вахтдыр көрмәмишәм, һәсрәтәм чанана мән,
Ајлар илә сәбр едирәм, дөзүрәм бу һичрана мән.

Дејирди ки, кәләчәјәм, анчаг кәлиб чыхмајыр јар,
Аз галыр ки, севдасындан олум дәли-диванә мән.

Һеч билмирәм һара кедим, кимә дејим бу дәрдими,
Јохса јаным пәрванә тәк гәсд ејләјим бу чана мән.

Јағма јағыш, әсмә күләк, јол верин сиз кәлсин о јар,
Гој пешиман олмајым ки, көз ачмышам чаһана мән.

Әһли-гәләм саһиби тәк үрәкләрдә јашар Симах,
Ешг јолунда дүшсәм дә кәр гасырғаја, туфана мән.

18.11.2006



# Düşsəm də tufana

Xeyli vaxtdır görməmişəm, həsrətəm canana mən,
Aylar ilə səbr edirəm, dözürəm bu hicrana mən.

Deyirdi ki, gələcəyəm, ancaq gəlib çıxmayır yar,
Az qalır ki, sevdasından olum dəli-divanə mən.

Heç bilmirəm hara gedim, kimə deyim bu dərdimi,
Yoxsa yanım pərvanə tək qəsd eyləyim bu cana mən.

Yağma yağış, əsmə külək, yol verin siz gəlsin o yar,
Qoy peşiman olmayım ki, göz açmışam cahana mən.

Əhli-qələm sahibi tək ürəklərdə yaşar Simax,
Eşq yolunda düşsəm də gər qasırğaya, tufana mən.

18.11.2006



# Чәкмә нәзәрини

Көз-гаш едиб бир назәнин өтүб кечди јанымдан,
Бу нә көзду, бу нә гашды, алов чыхды чанымдан.

Көрән һара тәләсирди, көрән һара кедирди,
Бир дәстә күл-чичәк дәриб өтду кулустанымдан.

Кетди, анчаг гәлбими дә өзү илә апарды,
Хәбәр этәр тутмады о, ахытдығы ганымдан.

Улу танры бирчә анлыг күлүмсәди үзүмә,
Сонра исә ајры салды мәни натәванымдан.

Симах Шеjда, гүрбәт елдә көзәлләри васф ејлә,
Анчаг чәкмә нәзәрини ол исми-пүнһанындан.

26.11.2006

# Çəkmə nəzərini

Göz-qaş edib bir nazənin ötüb keçdi yanımdan,
Bu nə gözdü, bu nə qaşdı, alov çıxdı canımdan.

Görən hara tələsirdi, görən hara gedirdi,
Bir dəstə gül-çiçək dərib ötdü gülüstanımdan.

Getdi, ancaq qəlbimi də özü ilə apardı,
Xəbər ətər tutmadı o, axıtdığı qanımdan.

Ulu tanrı bircə anlıq gülümsədi üzümə,
Sonra isə ayrı saldı məni natəvanımdan.

Simax Şeyda, qürbət eldə gözəlləri vəsf eylə,
Ancaq çəkmə nəzərini ol ismi-pünhanından.

26.11.2006

# Јарын әлиндән-әлиндән

Јенә гүссә, гәм чәкирәм јарын әлиндән-әлиндән,
Һарда олсам мәни тапан сарын әлиндән-әлиндән.

Гышын соіуг күләкләри ишләјир иликләримә,
Һеј дад-аман ејләјирәм гарын әлиндән-әлиндән.

Билмирәм нечә гуртарым чәфалар чәкән чанымы,
Дили зәһәрдән дә ачы марын әлиндән-әлиндән.

Үрәјим кәлир илһама, шад олур руһум, чаным,
Телли сазын, каманын, тарын әлиндән-әлиндән.

Симаха, фикр ејләмә дүшәр ишләрин сәһмана,
Әлбәт сән дә динчәләрсән карын әлиндән-әлиндән.

29.09.2006



# Yarın əlindən-əlindən

Yenə qüssə, qəm çəkirəm yarın əlindən-əlindən,
Harda olsam məni tapan sarın əlindən-əlindən.

Qışın soyuq küləkləri işləyir iliklərimə,
Hey dad-aman eyləyirəm qarın əlindən-əlindən.

Bilmirəm necə qurtarım cəfalar çəkən canımı,
Dili zəhərdən də acı marın əlindən-əlindən.

Ürəyim gəlir ilhama, şad olur ruhum, canım,
Telli sazın, kamanın, tarın əlindən-əlindən.

Simaxa, fikr eyləmə düşər işlərin səhmana,
Əlbət sən də dincələrsən karın əlindən-əlindən.

29.09.2006



# Тəзə ил

Јени арзулар илə, јени диләкләр илə,
Халгымыз гәдәм гојур бу ахшам тәзә илә.

Бол немәтли сүфрәләр ачылыб сачаг-сачаг,
Бир тәрәфдә тар, гавал, ешг илә кәлир дилә.

Бәзәниб башдан-баша Азәрбајчан торпағы,
Зәфәрләрлә јени ил кәлир обаја, елә.

Көнүлләрдә севинч вар, мәналыдыр бахышлар,
Гар да ара вермәдән јағыр чәмәнә, чөлә.

Фәрәһ, шадлыг сәсләри гарышыб бир-биринә,
Симах да рәгс ејләјир јар илә дејә-күлә.

31.10.2006



# Təzə il

Yeni arzular ilə, yeni diləklər ilə,
Xalqımız qədəm qoyur bu axşam təzə ilə.

Bol nemətli süfrələr açılıb saçaq-saçaq,
Bir tərəfdə tar, qaval, eşq ilə gəlir dilə.

Bəzənib başdan-başa Azərbaycan torpağı,
Zəfərlərlə yeni il gəlir obaya, elə.

Könüllərdə sevinc var, mənalıdır baxışlar,
Qar da ara vermədən yağır çəmənə, çölə.

Fərəh, şadlıq səsləri qarışıb bir-birinə,
Simax da rəqs eyləyir yar ilə deyə-gülə.

31.10.2006



# Гурбағанын шаирлији

Гур, гур едиб көлмәчәдән чыхды чөлә гурбаға,
Үрәкдән дә бир аһ чәкиб кәлди дилә гурбаға.

Дејирләр ки, јаздыгларым шеир дејил чәфәнкдир,
Јазыр-позур өзү үчүн елә-белә гурбаға.

Вәзн нәдир, бөлкү нәдир, рәдиф нәдир билмәјир,
Чаш-баш салыр балладаны тәмсил илә гурбаға.

Чап олунан китабларым охунмамыш атылыр,
Хәчаләтдән гачыб кирир чаја, көлә гурбаға.

Һәр дејилән сөз-сөһбәтә инанмајын сиз әсла,
Кетмәз һеч вахт, һеч бир заман фитнә-фелә гурбаға.

Симах Шејда, гур, гур етмәк, шеир јазмаг дејилдир,
Корбакор да олачагдыр билмир һәлә гурбаға.

13.12.2006

# Qurbağanın şairliyi

Qur, qur edib gölməçədən çıxdı çölə qurbağa,
Ürəkdən də bir ah çəkib gəldi dilə qurbağa.

Deyirlər ki, yazdıqlarım şeir deyil cəfəngdir,
Yazır-pozur özü üçün elə-belə qurbağa.

Vəzn nədir, bölgü nədir, rədif nədir bilməyir,
Çaş-baş salır balladanı təmsil ilə qurbağa.

Çap olunan kitabları oxunmamış atılır,
Xəcalətdən qaçıb girir qaya, gölə qurbağa.

Hər deyilən söz-söhbətə inanmayın siz əsla,
Getməz heç vaxt, heç bir zaman fitnə-felə qurbağa.

Simax Şeyda, qur, qur etmək, şeir yazmaq deyildir,
Gorbagor da olacaqdır bilmir hələ qurbağa.

13.12.2006

# Билсә олар пәришан

Бир дилбәрә көзүм дүшдү наҝаһан,
Аз галды ки, үрәјими етсин ган.

Фүзулинин көзәлими бу көзәл,
Шаир ону вәсф ејләјиб бир заман.

Бәлкә Ваһид гәләминдән күч алыб,
Нәзмә чәкиб ону бөјүк гәзәлхан.

О Вурғунун Һумајыдыр бәлкә дә,
Хәбәр тутмаг истәјир кәнч Чәлалдан.

Аз тәриф ет, Симах көзәл чанлары,
Исми-пунһан билсә олар пәришан.

09.11.2006



# Bilsə olar pərişan

Bir dilbərə gözüm düşdü nagahan,
Az qaldı ki, ürəyimi etsin qan.

Füzulinin gözəlimi bu gözəl,
Şair onu vəsf eyləyib bir zaman.

Bəlkə Vahid qələmindən güc alıb,
Nəzmə çəkib onu böyük qəzəlxan.

O Vurğunun humayıdır bəlkə də,
Xəbər tutmaq istəyir gənc Cəlaldan.

Az tərif et, Simax gözəl canları,
İsmi-pünhan bilsə olar pərişan.

09.11.2006



# Галмазсан шамсыз

Ешитдим нишаныны гајтармысан, көзәл гыз,
Чәкилиб ағлајырсан отағында сән јалгыз.

Сил көзүнүн јашыны өзүнә кәл ағлама,
Инсан ағламаг илә саралыб-солар јалныз.

Пешманчылыг һеч кәсә сәадәт кәтирмәмиш,
Гојма чаван көнлүнә һөкм ејләсин гыш, пајыз.

Күнәш доғар бахтына, бир күн күләр үз көзүн,
Кәлиб-кедәр елчиләр евинизә арамсыз.

Симах Шејда, јүз өлчүб, бир јол бичсән әкәр сән,
Гаранлыг кечәләрдә һеч вахт галмазсан шамсыз.

28.10.2006



# Qalmazsan şamsız

Eşitdim nişanını qaytarmısan, gözəl qız,
Çəkilib ağlayırsan otağında sən yalqız.

Sil gözünün yaşını özünə gəl ağlama,
İnsan ağlamaq ilə saralıb-solar yalnız.

Peşmançılıq heç kəsə səadət gətirməmiş,
Qoyma cavan könlünə hökm eyləsin qış, payız.

Günəş doğar baxtına, bir gün gülər üz gözün,
Gəlib-gedər elçilər evinizə aramsız.

Simax Şeyda, yüz ölçüb, bir yol biçsən əgər sən,
Qaranlıq gecələrdə heç vaxt qalmazsan şamsız.

28.10.2006



# Елоғлу

*Евдо Абрамова итһаф едирәм*

Бир Губаја вурғунам, бир дә сәнә, елоғлу!
Һәр күн ајаг басдығын чөл-чәмәнә, елоғлу!

"Гырмызы гәсәбә"дә јетишдин боја-баша,
Лајигли оғул олдун сән Вәтәнә, елоғлу!

Илһам верир гәлбинә Гудјал чајы, Шаһдағы,
Тез-тез кәлиб кедирсән бу күлшәнә, елоғлу!

Ән али күрсүләрдән кәлир сәсин, сорағын,
Данышырсан үрәкдән дөнә-дөнә, елоғлу!

Симах, истәр дилләрә дүшсүн шөһрәтин-шанын,
Азәрбајчан бир ана, сән пәрванә, елоғлу!

27.12.2006

# Eloğlu

*Evdo Abramova ithaf edirəm*

Bir Qubaya vurğunam, bir də sənə, eloğlu!
Hər gün ayaq basdığın çöl-çəmənə, eloğlu!

"Qırmızı qəsəbə"də yetişdin boya-başa,
Layiqli oğul oldun sən Vətənə, eloğlu!

İlham verir qəlbinə Qudyal çayı, Şahdağı,
Tez-tez gəlib gedirsən bu gülşənə, eloğlu!

Ən ali kürsülərdən gəlir səsin, sorağın,
Danışırsan ürəkdən dönə-dönə, eloğlu!

Simax, istər dillərə düşsün şöhrətin-şanın,
Azərbaycan bir ana, sən pərvanə, eloğlu!

27.12.2006

# Јар әлиндән

Нәләр, нәләр чәкирәм чаһанда јар әлиндән,
Гүссә, кәдәр чәкирәм һәр јанда јар әлиндән.

Таб едирәм бир тәһәр назына, гәмзәсинә,
Үрәји ган олурам бир анда јар әлиндән.

Көрәнләр јахшы билир фил дөзүмү вар мәндә,
Өзүмәм алышан да, јанан да јар әлиндән.

Дост-танышлар јанында сындырмырам өзүмү,
Шахта да аманлыдыр, туфан да јар әлиндән.

Симах Шејда, һәјатын һәр үзүнү көрмүсән,
Бир сөз дејә билмәјир ҹәһан да јар әлиндән.

16.11.2006



# Yar əlindən

Nələr, nələr çəkirəm cahanda yar əlindən,
Qüssə, kədər çəkirəm hər yanda yar əlindən.

Tab edirəm bir təhər nazına, qəmzəsinə,
Ürəyi qan oluram bir anda yar əlindən.

Görənlər yaxşı bilir fil dözümü var məndə,
Özüməm alışan da, yanan da yar əlindən.

Dost-tanışlar yanında sındırmıram özümü,
Şaxta da amanlıdır, tufan da yar əlindən.

Simax Şeyda, həyatın hər üzünü görmüsən,
Bir söz deyə bilməyir gəhan da yar əlindən.

16.11.2006



# Бахырсан һејран-һејран

Ај јанағы халлы јар, аман күнүдүр, аман,
Мәни һејран ејләјиб ағлымы алма башдан.

Көзләринә баханда дилим, нитгим лал олур,
Кимдә вардыр сәндәки бу кирпикдән, бу гашдан.

Белин инҹәдән инҹә, додағын балдан ширин,
Күлүшүн ҹан мәлһәми, гојма галым сәркәрдан.

Әлини вер әлимә көтүрүм гачым сәни,
Мүнһен көзләјир бизи, кечикмәк олмаз бир ан.

Симах, көзләрин ајдын хошбәхтисән дүнјанын,
Инди һәр күн бахырсан о јара һејран-һејран.

13.09.2006



# Baxırsan heyran-heyran

Ay yanağı xallı yar, aman günüdür, aman,
Məni heyran eyləyib ağlımı alma başdan.

Gözlərinə baxanda dilim, nitqim lal olur,
Kimdə vardır səndəki bu kirpikdən, bu qaşdan.

Belin incədən incə, dodağın baldan şirin,
Gülüşün can məlhəmi, qoyma qalım sərkərdan.

Əlini ver əlimə götürüm qaçım səni,
Münhen gözləyir bizi, gecikmək olmaz bir an.

Simax, gözlərin aydın xoşbəxtisən dünyanın,
İndi hər gün baxırsan o yara heyran-heyran.

13.09.2006



# Чана кәлмишәм

Севиб-севилмәк үчүн бу чаһана кәлмишәм,
Москин адлы сәфалы бир мәкана кәлмишәм.

Вәсли-јарын һәсрәти јандырыб јахыр мәни,
Она көрә чананы ана-ана кәлмишәм.

Нечә вахтдыр чәфакеш ашиги-зар кимијәм,
Вүсала чатмаг үчүн јана-јана кәлмишәм.

Көрсә мәни севинчдән учачагдыр аз гала,
Јар гојнуну бәнзәдиб Күлүстана кәлмишәм.

Симах Шеjда, кәз-долаш бу Күлүстан бағыны,
Тәнһа өмүр сүрмәкдән даһа чана кәлмишәм.

11.09.2006

# Cana gəlmişəm

Sevib-sevilmək üçün bu cahana gəlmişəm,
Moskin adlı səfalı bir məkana gəlmişəm.

Vəsli-yarın həsrəti yandırıb yaxır məni,
Ona görə cananı ana-ana gəlmişəm.

Neçə vaxtdır cəfakeş aşiqi-zar kimiyəm,
Vüsala çatmaq üçün yana-yana gəlmişəm.

Görsə məni sevincdən uçacaqdır az qala,
Yar qoynunu bənzədib Gülüstana gəlmişəm.

Simax Şeyda, gəz-dolaş bu Gülüstan bağını,
Tənha ömür sürməkdən daha cana gəlmişəm.

11.09.2006

# А көзләри нәркизим

Сән өмрүмүн бәзәјисән, а көзләри нәркизим,
Арзусусан, диләјисән, а көзләри нәркизим.

Сәндә тапдым мәһәббәти, сәадәти, севинчи,
Гәлб евимин чичәјисән, а көзләри нәркизим.

Сәнсиз мәнә бу шән һәјат көрүнәрди мәнасыз,
Өмүр боју кәрәјимсән, а көзләри нәркизим.

Башым үстә јанан улдуз чәләнкинә бәнзәрсән,
Исидәрсән гәлбими сән, а көзләри нәркизим.

Олардымы Симах сәнсиз белә хошбәхт, бәхтијар,
Кечә-күндүз бу гәдәр шән, а көзләри нәркизим.

29.08.2006



# A gözləri nərgizim

Sən ömrümün bəzəyisən, a gözləri nərgizim,
Arzususan, diləyisən, a gözləri nərgizim.

Səndə tapdım məhəbbəti, səadəti, sevinci,
Qəlb evimin çiçəyisən, a gözləri nərgizim.

Sənsiz mənə bu şən həyat görünərdi mənasız,
Ömür boyu gərəyimsən, a gözləri nərgizim.

Başım üstə yanan ulduz çələnginə bənzərsən,
İsidərsən qəlbimi sən, a gözləri nərgizim.

Olardımı Simax sənsiz belə xoşbəxt, bəxtiyar,
Gecə-gündüz bu qədər şən, a gözləri nərgizim.

29.08.2006



# Мисри гылынчым мәним

Үрәкләрдә јашар адын Мисри гылынчым мәним,
Бағрыны ган етдин јадын Мисри гылынчым мәним.

Нәрә чәкиб гоч Короғлу дөјүшләрә кирәндә,
Ачылары гол-ганадын Мисри гылынчым мәним.

Гүдрәтинә бәләд иди бәјләр, ханлар, пашалар,
Шөһрәтә, ад-сана чатдын Мисри гылынчым мәним.

Илдырымдан јаранмысан мәншәјин од, аловдур,
Бәллидир халга һәјатын Мисри гылынчым мәним.

Симах Шејда, гәләмини мөһкәм сахла әлиндә,
Тарихләрә дүшүб адын Мисри гылынчым мәним.

01.12.2006



# Misri qılıncım mənim

Ürəklərdə yaşar adın Misri qılıncım mənim,
Bağrını qan etdin yadın Misri qılıncım mənim.

Nərə çəkib qoç Koroğlu döyüşlərə girəndə,
Açılardı qol-qanadın Misri qılıncım mənim.

Qüdrətinə bələd idi bəylər, xanlar, paşalar,
Şöhrətə ad-sana çatdın Misri qılıncım mənim.

İldırımdan yaranmısan mənşəyin od, alovdur,
Bəllidir xalqa həyatın Misri qılıncım mənim.

Simax Şeyda, qələmini möhkəm saxla əlində,
Tarixlərə düşüb adın Misri qılıncım mənim.

01.12.2006



# Һәсрәт чәкирәм

Һәр күн вәтән дүшүр јада, гүрбәтдә һәсрәт чәкирәм,
Кәлиб чатан јохдур дада, гүрбәтдә һәсрәт чәкирәм.

Дарыхырам Бакы үчүн, көзәл Кәнчә, Огуз үчүн,
Көјчајымдан вардыр һарда, гүрбәтдә һәсрәт чәкирәм.

Көнүл бир дә кечмәк истәр Шамахыдан, Ләнкәрандан,
Ширин өмүр кедир бада, гүрбәтдә һәсрәт чәкирәм.

Бир јар севдим Гудјал чајын саһилиндә бир заманлар,
Үрәјими салды ода, гүрбәтдә һәсрәт чәкирәм.

Симах, Вәтән мүгәддәсдир, онсуз хошбәхт олан вармы?
Гојмаз сәни һеч вахт дарда, гүрбәтдә һәсрәт чәкирәм.

02.12.2006

# Həsrət çəkirəm

Hər gün vətən düşür yada, qürbətdə həsrət çəkirəm,
Gəlib çatan yoxdur dada, qürbətdə həsrət çəkirəm.

Darıxıram Bakı üçün, gözəl Gəncə, Oguz üçün,
Göyçayımdan vardır harda, qürbətdə həsrət çəkirəm.

Könül bir də keçmək istər Şamaxıdan, Lənkərandan,
Şirin ömür gedir bada, qürbətdə həsrət çəkirəm.

Bir yar sevdim Qudyal çayın sahilində bir zamanlar,
Ürəyimi saldı oda, qürbətdə həsrət çəkirəm.

Simax, Vətən müqəddəsdir, onsuz xoşbəxt olan varmı?
Qoymaz səni heç vaxt darda, qürbətdə həsrət çəkirəm.

02.12.2006

# Фил дә дөзмәз

Гәм дағы вар синәмдә чәркә-чәркә,
Гошгар кими һәр бири бөјүк, јекә.

Фәрһад кәлсә бу дағлары чапмаға,
Онун күчү, гүввәси чатмаз бәлкә.

Јарын назы, чанлар алан бахышы,
Хејли вахтдыр кәтириб мәни тәнкә.

Дүшүнүрәм ки, көрәсән нә заман,
Кечиб кедәр башымдан бу тәһлүкә.

Ешг әлиндән Симах нәләр чәкирсән,
Фил дә дөзмәз бу әзаба, бу чәнкә.

6.11.2006



# Fil də dözməz

Qəm dağı var sinəmdə cərgə-cərgə,
Qoşqar kimi hər biri böyük, yekə.

Fərhad gəlsə bu dağları çapmağa,
Onun gücü, qüvvəsi çatmaz bəlkə.

Yarın nazı, canlar alan baxışı,
Xeyli vaxtdır gətirib məni təngə.

Düşünürəm ki, görəsən nə zaman,
Keçib gedər başımdan bu təhlükə.

Eşq əlindən Simax nələr çəkirsən,
Fil də dözməz bu əzaba, bu cəngə.

6.11.2006



# Олмасын

Јар јарынын көзүндән кәрәк узаг олмасын,
Севсин бири-бирини өзкә сајаг олмасын.

Мәһәббәтлә, ешг илә кечсин өмрүн күнләри,
Тез алышыб, тез сөнән көзсүз очаг олмасын.

О назәнин көзәлә дејин аз наз ејләсин,
Үрәкләр ешг одунда јаныб дамаг олмасын.

Севкидир бу дүнјаја рөвнәг верән әзәлдән,
Ким истәмәз кәнчләрин әһвалы чағ олмасын.

Симах, вәфасыз јарын чәфасындан узаг ол,
Гәлб евиндә һеч заман гуссә, фәраг олмасын.

07.08.2006



# Olmasın

Yar yarının gözündən gərək uzaq olmasın,
Sevsin biri-birini özgə sayaq olmasın.

Məhəbbətlə, eşq ilə keçsin ömrün günləri,
Tez alışıb, tez sönən közsüz ocaq olmasın.

O nazənin gözələ deyin az naz eyləsin,
Ürəklər eşq odunda yanıb damaq olmasın.

Sevgidir bu dünyaya rövnəq verən əzəldən,
Kim istəməz gənclərin əhvalı çağ olmasın.

Simax, vəfasız yarın cəfasından uzaq ol,
Qəlb evində heç zaman qüssə, fəraq olmasın.

07.08.2006



# Гәм, гуссә әвәзинә

*Муғәнни Лазыр Ханукајева*
*итһаф едирәм*

Һејран олуб үрәјим сәнин ширин сәсинә,
Јохдур елә бир нәфәс тај олсун нәфәсинә.

Охујанда гәлбимдә хош дујғулар ојаныр,
Санки гулаг асырам бүлбүлүн нәғмәсинә.

Бир заманлар Тифлисдә танытдын сән өзүнү,
Инди дә Исраилдә һамыдан башсан јенә.

Халгын әзиз һөрмәтли көзәл нәғмәкарысан,
Варам сәнәтә олан ешгинә, һәвәсинә.

Симах, ширин маһнылар, үрәк-ачан маһнылар,
Инсанлара јар олсун гәм, гуссә әвәзинә.

12.12.2006

# Qəm, qüssə əvəzinə

*Müğənni Lazır Xanukayevə*
*ithaf edirəm*

Heyran olub ürəyim sənin şirin səsinə,
Yoxdur elə bir nəfəs tay olsun nəfəsinə.

Oxuyanda qəlbimdə xoş duyğular oyanır,
Sanki qulaq asıram bülbülün nəğməsinə.

Bir zamanlar Tiflisdə tanıtdın sən özünü,
İndi də İsraildə hamıdan başsan yenə.

Xalqın əziz hörmətli gözəl nəğməkarısan,
Varam sənətə olan eşqinə, həvəsinə.

Simax, şirin mahnılar, ürək-açan mahnılar,
İnsanlara yar olsun qəm, qüssə əvəzinə.

12.12.2006

# Јенә дә јар бәзәниб

Јенә дә јар бәзәниб зәри-зиба ичиндәдир,
Чан вериб, чанлар алыр зөвгү-сәфа ичиндәдир.

Бу гәдәр наз-гәмзәјә лазымдыр чан таб ејләсин,
Көнүл гәмләр әлиндә чөврү-чәфа ичиндәдир.

Күлдән-күлә гонараг бүлбүл кәзир бағ-бағчаны,
Көрәсән сәһәр-сәһәр нечин нәва ичиндәдир.

Бивәфа көзәлләрдән гачырам һеј узаглара,
Чүнки онлар ајылмаз ширин рөја ичиндәдир.

Нә ола јар бәзәниб кәшт едәјди Гарабағда,
Симахын шаир гәлби хејр-дуа ичиндәдир.

15.08.2006



# Yenə də yar bəzənib

Yenə də yar bəzənib zəri-ziba içindədir,
Can verib, canlar alır zövqü-səfa içindədir.

Bu qədər naz-qəmzəyə lazımdır can tab eyləsin,
Könül qəmlər əlində cövrü-cəfa içindədir.

Güldən-gülə qonaraq bülbül gəzir bağ-bağçanı,
Görəsən səhər-səhər neçin nəva içindədir.

Bivəfa gözəllərdən qaçıram hey uzaqlara,
Çünki onlar ayılmaz şirin röya içindədir.

Nə ola yar bəzənib gəşt edəydi Qarabağda,
Simaxın şair qəlbi xeyr-dua içindədir.

15.08.2006



# Дүшдү

Севдалы үрәјимә јенә назлы јар дүшдү,
Руһума ганад верән көзәл вәфадар дүшдү.

Дикилди улдузлара интизарлы көзләрим,
Јадыма хумар илә о көзәл Никар дүшдү.

Сәфалы бир јаз күнү бәлкә кәлди Москиндән,
Әғјарын үрәјинә дәрд дүшдү, губар дүшдү.

Вәсли-чанан һәсрәти сон гојачаг һәр аһа,
Һәлә о јар кәлмәмиш ел, обаја чар дүшдү.

Симах Шејда, вүсала бу күн, сабаһ чатарсан,
Севин ки, гисмәтинә белә бир дилдар дүшдү.

31.10.2006



# Düşdü

Sevdalı ürəyimə yenə nazlı yar düşdü,
Ruhuma qanad verən gözəl vəfadar düşdü.

Dikildi ulduzlara intizarlı gözlərim,
Yadıma xumar ilə o gözəl Nigar düşdü.

Səfalı bir yaz günü bəlkə gəldi Moskindən,
Əğyarın ürəyinə dərd düşdü, qubar düşdü.

Vəsli-canan həsrəti son qoyacaq hər aha,
Hələ o yar gəlməmiş el, obaya car düşdü.

Simax Şeyda, vüsala bu gün, sabah çatarsan,
Sevin ki, qismətinə belə bir dildar düşdü.

31.10.2006



# Мүнһени

Көнүл истәр вәсф ејләсин көзәл-көјчәк Мүнһени,
Һара бахсан бурүјүбдү мин күл-чичәк Мүнһени.

Уча-уча ағачлары көј үзүнә баш чәкир,
Елә бил ки, саламлајыр әсән күләк Мүнһени.

Кәсилмәјир кәлиб-кедән гонагларын ајағы,
Көр нечә дә күлшән едиб һалал әмәк Мүнһени.

Фәваррәләр үрәкләрә бир сәринлик кәтирир,
Чамалына һејран олур көрән үрәк Мүнһени.

Бој-бухунлу көзәлләри јаман назлы-дузлудур,
Гојмаз гүссә, гәм чәкмәјә дејиб-күлмәк Мүнһени.

Симах, шәһәр шәһәр дејил, бир музејдир елә бил,
Өз көзүјлә кәлиб көрсүн инсан кәрәк Мүнһени.

18.09.2006

# Münheni

Könül istər vəsf eyləsin gözəl-göyçək Münheni,
Hara baxsan bürüyübdü min gül-çiçək Münheni.

Uca-uca ağacları göy üzünə baş çəkir,
Elə bil ki, salamlayır əsən külək Münheni.

Kəsilməyir gəlib-gedən qonaqların ayağı,
Gör necə də gülşən edib halal əmək Münheni.

Fəvarrələr ürəklərə bir sərinlik gətirir,
Camalına heyran olur görən ürək Münheni.

Boy-buxunlu gözəlləri yaman nazlı-duzludur,
Qoymaz qüssə, qəm çəkməyə deyib-gülmək Münheni.

Simax, şəhər şəhər deyil, bir muzeydir elə bil,
Öz gözüylə gəlib görsün insan gərək Münheni.

18.09.2006

# Кечәләр

Тез-тез јухуда көрүрәм севкили-јары кечәләр,
Артыр даһа да гәлбимин гәми, гүбары кечәләр.

Каһ кәлиб узагда дурур, башлајыр наз-буз етмәјә,
Каһ да һеч кәлмәк истәмир ашигә сары кечәләр.

Атәши-ешгдә јаныр үрәјим башдан ајаға,
Билир ки, нәләр чәкирәм ол бөјүк Танры кечәләр.

Чифајда ки, көрүрәм узагдан-узаға јары,
Билмирәм рам едим нечә ол ситәмкары кечәләр.

Зүлүм едиб кәл арадан көтүрмә Симах Шејданы,
Гонаг ет ләбләринин шәстинә бары кечәләр.

25.09.2006



# Gecələr

Tez-tez yuxuda görürəm sevgili-yarı gecələr,
Artır daha da qəlbimin qəmi, qübarı gecələr.

Gah gəlib uzaqda durur, başlayır naz-buz etməyə,
Gah da heç gəlmək istəmir aşiqə sarı gecələr.

Atəşi-eşqdə yanır ürəyim başdan ayağa,
Bilir ki, nələr çəkirəm ol böyük Tanrı gecələr.

Çifayda ki, görürəm uzaqdan-uzağa yarı,
Bilmirəm ram edim necə ol sitəmkarı gecələr.

Zülüm edib gəl aradan götürmə Simax Şeydanı,
Qonaq et ləblərinin şəstinə barı gecələr.

25.09.2006



# Ачмалыјдым ешгими

Ачмалыјдым ешгими бир күл үзлү јара мән,
Демәлијдим сөзүмү о назлы ниҝара мән.

Ешитмәк истәмирди сөзләрими нәдәнсә,
Кимә дејим дәрдими, кимдән умум чара мән.

Дүшүндүм өз-өзүмә көрәк үрәк нә дејир,
Сөһбәт етдим онунла бир мүддәт, бир ара мән.

Деди: шаир, наз едир, севир сәни о көзәл,
Сон гојдум һәм дәрд-гәмә, һәм дә аһу-зара мән.

Ачдын јара гәлбини бир күн нәһајәт Симах,
Күлдү чаһан көзүмдә, јетишдим дилдара мән.

08.10.2006



# Açmalıydım eşqimi

Açmalıydım eşqimi bir gül üzlü yara mən,
Deməliydim sözümü o nazlı nigara mən.

Eşitmək istəmirdi sözlərimi nədənsə,
Kimə deyim dərdimi, kimdən umum çara mən.

Düşündüm öz-özümə görək ürək nə deyir,
Söhbət etdim onunla bir müddət, bir ara mən.

Dedi: şair, naz edir, sevir səni o gözəl,
Son qoydum həm dərd-qəmə, həm də ahu-zara mən.

Açdın yara qəlbini bir gün nəhayət Simax,
Güldü cahan gözümdə, yetişdim dildara mən.

08.10.2006



# Тәләсирәм

Севкили јары көрмәјә тәләсирәм,
Һазлы никары көрмәјә тәләсирәм.

Һарда олса ахтарыб тапам кәрәк,
Күлү-рүхсары көрмәјә тәләсирәм.

Һәр кечә јухума кирир гојмур јатам,
Лејли-дилдары көрмәјә тәләсирәм.

Һәсрәти-чаһан одуна јандым, аман!
Һүсну-баһары көрмәјә тәләсирәм.

Ешгә көнүл вер Симаха, ешгдән јаз,
Ол күлүзары көрмәјә тәләсирәм.

08.10.2006

# Tələsirəm

Sevgili yarı görməyə tələsirəm,
Nazlı nigarı görməyə tələsirəm.

Harda olsa axtarıb tapam gərək,
Gülü-rüxsarı görməyə tələsirəm.

hər gecə yuxuma girir qoymur yatam,
Leyli-dildarı görməyə tələsirəm.

Həsrəti-cahan oduna yandım, aman!
Hüsnü-baharı görməyə tələsirəm.

Eşqə könül ver Simaxa, eşqdən yaz,
Ol gülüzarı görməyə tələsirəm.

08.10.2006

# Дөзә билмәз

Кетмә, кетмә ајаг сахла, аһым сығмаз бу дағлара,
Кетсән дүнја јетим галар, үнүм чатмаз узаглара.

Кетмәјинә шад оланлар, севинәнләр вардыр, күлүм,
Чаһан даһа нурлу олар, шөлә олсан чыраглара.

Һәр јетәнин сөзү илә кәл отуруб-дурма белә,
Салма чаван өмрүнү сән әбәс јерә ајаглара.

Хумар көзлүм бир бахышла фәтһ ејләдин үрәјими,
Гојма һәсрәт галам мәни бал бәләнмиш додаглара.

Өз евини өз әлијлә јыханларла јохдур арам,
Таб кәтирмәз, дөзә билмәз Симах белә фәраглара.

05.12.2006



# Dözə bilməz

Getmə, getmə ayaq saxla, ahım sığmaz bu dağlara,
Getsən dünya yetim qalar, ünüm çatmaz uzaqlara.

Getməyinə şad olanlar, sevinənlər vardır, gülüm,
Cahan daha nurlu olar, şölə olsan çıraqlara.

Hər yetənin sözü ilə gəl oturub-durma belə,
Salma cavan ömrünü sən əbəs yerə ayaqlara.

Xumar gözlüm bir baxışla fəth eylədin ürəyimi,
Qoyma həsrət qalam məni bal bələnmiş dodaqlara.

Öz evini öz əliylə yıxanlarla yoxdur aram,
Tab gətirməz, dözə bilməz Simax belə fəraqlara.

05.12.2006



# Ҝөзәл

Бир бусә вер ләбиндән мәнә әрмаған, көзәл,
Гој јетишим вүсала гурбан сәнә чан, көзәл.

Бу арзумун ешгилә јанырам кечә-күндүз,
Чатарам мәгсәдимә көрәсән һачан, көзәл?

Наз-гәмзәдән әл көтүр чәфакеш олма белә,
Ҝәрәк чох ган төкмәсин һәјатда чанан, көзәл.

Хәјаллар аләминдә сәни кәзиб тапырам,
Нә олсун ки, узағам көзәл Хајфадан, көзәл.

Симахын гәлб евинин шаһысән, султаны сән,
Гуртар онун чаныны көрүм чәфадан, көзәл.

03.09.2006



# Gözəl

Bir busə ver ləbindən mənə ərməğan, gözəl,
Qoy yetişim vüsala qurban sənə can, gözəl.

Bu arzumun eşqilə yanıram gecə-gündüz,
Çataram məqsədimə görəsən haçan, gözəl?

Naz-qəmzədən əl götür cəfakeş olma belə,
Gərək çox qan tökməsin həyatda canan, gözəl.

Xəyallar aləmində səni gəzib tapıram,
Nə olsun ki, uzağam gözəl Xayfadan, gözəl.

Simaxın qəlb evinin şahısən, sultanı sən,
Qurtar onun canını görüm cəfadan, gözəl.

03.09.2006



# Дилгәм руһлу сазам мән

Мусиги чәләнкијәм: Бајаты Ширазам мән,
Гатарам, Чаһаркаһам, һәм дә Күрд Шаһназам мән.

Узаглардан баш алыб кәлиб Күрә төкүлән,
Синәси гәм, гүссәли, һәсрәтли Аразам мән.

Гәбәләјәм, Губајам, Кәнчәјәм, Ләнкәранам,
Барла-бәһәрлә кәлән күл-чичәкли јазам мән.

Гошгарам, Шаһ дағыјам, Шамахыјам, Оғузам,
Сәфалы Нардаранам, Шәкијәм, Хачмазам мән.

Симаха, Азәрбајчан ешгим, һиссим, чанымдыр,
Ону тәрәннүм едән Дилгәм руһлу сазам мән.

08.09.2006

# Dilqəm ruhlu sazam mən

Musiqi çələngiyəm: Bayatı Şirazam mən,
Qataram, Çahargaham, həm də Kürd Şahnazam mən.

Uzaqlardan baş alıb gəlib Kürə tökülən,
Sinəsi qəm, qüssəli, həsrətli Arazam mən.

Qəbələyəm, Qubayam, Gəncəyəm, Lənkəranam,
Barla-bəhərlə gələn gül-çiçəkli yazam mən.

Qoşqaram, Şah dağıyam, Şamaxıyam, Oğuzam,
Səfalı Nardaranam, Şəkiyəm, Xaçmazam mən.

Simaxa, Azərbaycan eşqim, hissim, canımdır,
Onu tərənnüm edən Dilqəm ruhlu sazam mən.

08.09.2006

# Башла ширин сөһбәтә

Шөһрәт далынҹа гачма, сән баш әјмә шөһрәтә,
Көнүл бағла мүгәддәс севкијә, мәһәббәтә.

Кәрпич кәсән киши тәк[1] зәһмәт илә достлуг ет,
Бир кимсә чата билмәз зәһмәтсиз сәадәтә.

Халг јанында һәмишә уҹа көрүнәр башын,
Әкәр версән гәлбини дүзлүјә, һәгигәтә.

Хејирхаһлыг, гардашлыг дүнјасына бел бағла,
Јалныз тәмиз ишинлә хидмәт ејлә миллэтә.

Симах Шејда мәһәббәт дүнјасында пәрваз ет,
Көзәлләрин хасијлә башла ширин сөһбәтә.

06.09.2006

*1. Н.Кәнҹәвинин "Кәрпичкәсән кишинин дастаны" шеринә ишарәдир.*



# Başla şirin söhbətə

Şöhrət dalınca qaçma, sən baş əymə şöhrətə,
Könül bağla müqəddəc cevgiyə, məhəbbətə.

Kərpic kəsən kişi tək[1] zəhmət ilə dostluq et,
Bir kimsə çata bilməz zəhmətsiz səadətə.

Xalq yanında həmişə uca görünər başın,
Əgər versən qəlbini düzlüyə, həqiqətə.

Xeyirxahlıq, qardaşlıq dünyasına bel bağla,
Yalnız təmiz işinlə xidmət eylə millətə.

Simax Şeyda məhəbbət dünyasında pərvaz et,
Gözəllərin xasiylə başla şirin söhbətə.

06.09.2006

*1. N.Gəncəvinin "Kərpickəsən kişinin dastanı" şerinə işarədir.*



# Сығал чәкәр телләрә

Гыш гуртарды, баһар кәлди елләрә,
Күнәш доғду чәмәнләрә, чөлләрә.

Гызылкүлләр, јасәмәнләр ачылды,
Дүщдү әтри, раһијәси һәр јерә.

Бағ-бағчалар јашыл дона бүрүндү,
Кәпәнәкләр учуб гонду күлләрә.

Јенә чыхды тарлалара адамлар,
Гүввәт кәлди биләкләрә, әлләрә.

Гар әриди үзү күлдү дағларын,
Вида деди ашыб-дашан селләрә.

Симах, ачар јар јарына гәлбини,
Күләкләр дә сығал чәкәр телләрә.

04.12.2006



# Sığal çəkər tellərə

Qış qurtardı, bahar gəldi ellərə,
Günəş doğdu çəmənlərə, çöllərə.

Qızılgüllər, yasəmənlər açıldı,
Düşdü ətri, rahiyəsi hər yerə.

Bağ-bağçalar yaşıl dona büründü,
Kəpənəklər uçub qondu güllərə.

Yenə çıxdı tarlalara adamlar,
Qüvvət gəldi biləklərə, əllərə.

Qar əridi üzü güldü dağların,
Vida dedi aşıb-daşan sellərə.

Simax, açar yar yarına qəlbini,
Küləklər də sığal çəkər tellərə.

04.12.2006



# Салыбдыр туфана

Көнүл, о јар атды сәни кәдәрин сығмаз дастана,
Галмысан бу күчәләрдә гәлби јаслана-јаслана.

Фәрһад, Кәрәм сағ олсајды, кәзиб тапардым онлары,
Ашиғләрлә дәрдләшәрдим субһә кими јана-јана.

Билмирәм нә дејим дүзү чәрхи-фәләјин ишинә,
Үрәк едиб ким гол чәкди бу әмирә, бу фәрмана?

Исраил торпағында тапмышдым о назәнини,
Киши лазым бу гүссәнин габағында дајана.

Вәфасызлыг дәрсини Зүлејхадан алдымы јар?
Симахын гәлб евини салды туфандан-туфана.

04.09.2006

# Salıbdır tufana

Könül, o yar atdı səni kədərin sığmaz dastana,
Qalmısan bu küçələrdə qəlbi yaslana-yaslana.

Fərhad, Kərəm sağ olsaydı, gəzib tapardım onları,
Aşiqlərlə dərdləşərdim sübhə kimi yana-yana.

Bilmirəm nə deyim düzü çərxi-fələyin işinə,
Ürək edib kim qol çəkdi bu əmirə, bu fərmana?

İsrail torpağında tapmışdım o nazənini,
Kişi lazım bu qüssənin qabağında dayana.

Vəfasızlıq dərsini Züleyxadan aldımı yar?
Simaxın qəlb evini saldı tufandan-tufana.

04.09.2006

# Нә үчүн

Јар демишди кәләчәјәм кәлмәди, чанан нә үчүн?
Мәни Мәчнун ејләди ол сәрви-хураман нә үчүн?

Јорулмушам Мүнһен-Хајфа јолларына көз дикмәкдән,
Һарададыр кәлиб-чыхмыр һүрији-гылман нә үчүн?

Гәм, гүссәни дағытмагчүн һәрдән чыхарам шәһәрә,
Гәлб евим олмур јенә дә билмирәм хәндан нә үчүн?

Ејваһ, мәни өлдүрәчәк бу ајрылығын кәдәри,
Дәрдләримә тапылмајыр билмирәм дәрман нә үчүн?

Симаха, әһвалындан хәбәри вармы дилдарын?
Мәнә зүлүм, әзаб верир о исми пүнһан нә үчүн?

31.08.2006



# Nə üçün

Yar demişdi gələcəyəm gəlmədi, canan nə üçün?
Məni Məcnun eylədi ol sərvi-xuraman nə üçün?

Yorulmuşam Münhen-Xayfa yollarına göz dikməkdən,
Haradadır gəlib-çıxmır huriyi-qılman nə üçün?

Qəm, qüssəni dağıtmaqçün hərdən çıxaram şəhərə,
Qəlb evim olmur yenə də bilmirəm xəndan nə üçün?

Eyvah, məni öldürəcək bu ayrılığın kədəri,
Dərdlərimə tapılmayır bilmirəm dərman nə üçün?

Simaxa, əhvalından xəbəri varmı dildarın?
Mənə zülüm, əzab verir o ismi pünhan nə üçün?

31.08.2006



# Үрәјимиз оларды

Күндә бирини севиб, биринә чан дејирсән,
Мән сәнинәм, сән мәним, ај гыз, инан дејирсән.

Узаг кетмә көзүмдән гана дөнәр үрәјим,
Һәтта ширин чаным да сәнә гурбан дејирсән..

Беш-алты күн кечмәмиш дәјишилир әһвалын,
Сојујурсан о гыздан "аман", "аман" дејирсән.

Башга бир ов далынча јолланыр ајагларын,
Бүзмә додаг бир гыза көзәл чанан дејирсән.

Нә Фәрһад, нә дә Кәрәм ешги учуз тутмамыш,
Көзәл вурғуну олсун кәрәк чаван дејирсән.

Симах, ешги дөнүкләр олмасајды чаһанда,
Үрәјимиз оларды даһа хәндан дејирсән.

15.12.2006



# Ürəyimiz olardı

Gündə birini sevib, birinə can deyirsən,
Mən səninəm, sən mənim, ay qız, inan deyirsən.

Uzaq getmə gözümdən qana dönər ürəyim,
Hətta şirin canım da sənə qurban deyirsən..

Beş-altı gün keçməmiş dəyişilir əhvalın,
Soyuyursan o qızdan "aman", "aman" deyirsən.

Başqa bir ov dalınca yollanır ayaqların,
Büzmə dodaq bir qıza gözəl canan deyirsən.

Nə Fərhad, nə də Kərəm eşqi ucuz tutmamış,
Gözəl vurğunu olsun gərək cavan deyirsən.

Simax, eşqi dönüklər olmasaydı cahanda,
Ürəyimiz olardı daha xəndan deyirsən.

15.12.2006



# Диллəрдə дастан олум

Севирсəнсə сев мəни, севкинə гурбан олум,
Чəким чөвру-чəфаны, һуснунə гурбан олум.

Əзизлəјим һəр заман башына дөнум сəнин,
Чан дејиб чан ешидəк, һəмишə хəндан олум.

Сəнин кими чананы һардан тапа билəрəм,
Бутун дəрди-сəринə истəрəм лоғман олум.

Гызылкул тəк, лалə тəк гəлбими охшајырсан,
Гојма зиндана душум Јусифи-Кəнан олум.

Симах Шејда булбултəк аһу-фəган ејлəмə,
Елə сев Мəчнун кими диллəрдə дастан олум.

27.10.2006

# Dillərdə dastan olum

Sevirsənsə sev məni, sevginə qurban olum,
Çəkim cövrü-cəfanı, hüsnünə qurban olum.

Əzizləyim hər zaman başına dönüm sənin,
Can deyib can eşidək, həmişə xəndan olum.

Sənin kimi cananı hardan tapa bilərəm,
Bütün dərdi-sərinə istərəm loğman olum.

Qızılgül tək, lalə tək qəlbimi oxşayırsan,
Qoyma zindana düşüm Yusifi-Kənan olum.

Simax Şeyda bülbültək ahu-fəqan eyləmə,
Elə sev Məcnun kimi dillərdə dastan olum.

27.10.2006

# Гарабағ

Чыхарда билмирәм һеч мән сәни јаддан Гарабағ,
Танры һифз етсин сәни дүшмәндән, јаддан, Гарабағ.

Шушаны, Фүзулини, Лачыны кәзә билмирәм,
Көрән һачан гуртарарсан дүшдүјүн оддан Гарабағ?

Јенә Иса булағыны көрмәјә көнүл тәләсир,
Хәбәр тутмаг истәјирәм һәр тој-бүсатдан, Гарабағ.

Закирин, Натәванын дүшмән әлиндәдир јурду,
Вахтдыр гуртар чаныны ағыр һәјатдан Гарабағ.

Симаха гәм јемә чох, кетмә фикирә, хәјала,
Тезликлә азад олачаг чәннәти-мәкан Гарабағ.

15.09.2006



# Qarabağ

Çıxarda bilmirəm heç mən səni yaddan Qarabağ,
Tanrı hifz etsin səni düşməndən, yaddan, Qarabağ.

Şuşanı, Füzulini, Laçını gəzə bilmirəm,
Görən haçan qurtararsan düşdüyün oddan Qarabağ?

Yenə İsa bulağını görməyə könül tələsir,
Xəbər tutmaq istəyirəm hər toy-büsatdan, Qarabağ.

Zakirin, Natəvanın düşmən əlindədir yurdu,
Vaxtdır qurtar canını ağır həyatdan Qarabağ.

Simaxa qəm yemə çox, getmə fikirə, xəyala,
Tezliklə azad olacaq cənnəti-məkan Qarabağ.

15.09.2006



# Тәрәфә

Јолуму салдым бу күн дилбәри-чанан тәрәфә,
Көзләри чанлар алан, гашлары каман тәрәфә.

Көрәрәм бәлкә дедим, үрәјим кәләр јеринә,
Јеридим севинч илә дәрдимә дәрман тәрәфә.

Сејр етдим кечәнләри, көрмәдим анчаг о јары,
Учду сәјјар хәјалым һүреји-гылман тәрәфә.

Фикир етдим көрәрәм, мән дә чатарам вүсала,
Бир даһа јолум дүшмәз гүссеји-һичран тәрәфә.

Симаха, кәләчәјә бөјүк үмидләр илә бах,
Чатарсан әлбәт бир күн ол исми пүнһан тәрәфә.

25.12.2006



# Tərəfə

Yolumu saldım bu gün dilbəri-canan tərəfə,
Gözləri canlar alan, qaşları kaman tərəfə.

Görərəm bəlkə dedim, ürəyim gələr yerinə,
Yeridim sevinc ilə dərdimə dərman tərəfə.

Seyr etdim keçənləri, görmədim ancaq o yarı,
Uçdu səyyar xəyalım hüreyi-qılman tərəfə.

Fikir etdim görərəm, mən də çataram vüsala,
Bir daha yolum düşməz qüsseyi-hicran tərəfə.

Simaxa, gələcəyə böyük ümidlər ilə bax,
Çatarsan əlbət bir gün ol ismi pünhan tərəfə.

25.12.2006



# Аз галды ки...

Алманија торпағында көрдүм бир дилбәри-чан,
Наз-гәмзәјә, ишвә-назла кәлиб кечди јанымдан.

Аман аллаһ! Бу јар мәним өз јарыма бәнзәјир,
Көзләрими о көзәлдән чәкә билмәдим бир ан.

Көздән, гашдан, бахышлардан лап јарымын өзүјдү,
Санки ики јерә бөлмүш бир алмана јарадан.

Дөнә-дөнә чамалына бир дә бахдым јахындан,
Јеришинә, дурушуна үрәкдән олдум һејран.

Симах Шејда, белә ишләр бәзән олур һәјатда,
Аз галды ки, о көзәли кедиб гучум нақаһан.

07.09.2006

# Az qaldı ki...

Almaniya torpağında gördüm bir dilbəri-can,
Naz-qəmzəyə, işvə-nazla gəlib keçdi yanımdan.

Aman allah! Bu yar mənim öz yarıma bənzəyir,
Gözlərimi o gözəldən çəkə bilmədim bir an.

Gözdən, qaşdan, baxışlardan lap yarımın özüydü,
Sanki iki yerə bölmüş bir almana yaradan.

Dönə-dönə camalına bir də baxdım yaxından,
Yerişinə, duruşuna ürəkdən oldum heyran.

Simax Şeyda, belə işlər bəzən olur həyatda,
Az qaldı ki, o gözəli gedib qucum nagahan.

07.09.2006

# Јар әлиндән

Аман-аман бу көзләри мәсти-хумар әлиндән,
Гәлби ешгли, мәһәббәтли, севкили јар әлиндән.

Һара кетсә сејрләјиб ашигини апарыр,
Нә истәсә о дилбәрин валлаһ чыхар әлиндән.

Рәһми јохдур, рәһм ејләсин элә алсын көнлүмү,
Һеч кәс билмир нә чәкирәм кулү-рухсар әлиндән.

О көзәлин назы илә отурурам, дуруурам,
Истәмирәм тәнкә кәлим мән аһу-зар әлиндән.

Симах Шејда гүссә чәкмәк ашигләрин ишидир,
Чалыш күнүн хош өтүшсүн бир зүлүмкар әлиндән.

31.11.2006



# Yar əlindən

Aman-aman bu gözləri məsti-xumar əlindən,
Qəlbi eşqli, məhəbbətli, sevgili yar əlindən.

Hara getsə seyrləyib aşiqini aparır,
Nə istəsə o dilbərin vallah çıxar əlindən.

Rəhmi yoxdur, rəhm eyləsin ələ alsın könlümü,
Heç kəs bilmir nə çəkirəm gülü-rüxsar əlindən.

O gözəlin nazı ilə otururam, dururam,
İstəmirəm təngə gəlim mən ahu-zar əlindən.

Simax Şeyda qüssə çəkmək aşiqlərin işidir,
Çalış günün xoş ötüşsün bir zülümkar əlindən.

31.11.2006



# Көзүндән кәнара гојма

Ешгинлә нәфәс алырам чисми-натәваным мәним,
Сәнсиз јашаја билмәрәм, еј сәрви-рәваным мәним.

Бирчә күн көрмәсәм сәни зиндана дөнәр һәјатым,
Учалар көј үзүндә налеји - фәрјадым мәним.

Һәр вүсальнјар ешгилә алышыб јанан дејиләм,
Јалныз сәнсән, бирчә сән ол шөһрәти-шаным мәним.

Хумар-хумар бахышыны дәјишмәм дүнја варына,
Ләлдән, мәрчандан артыгсан афәти-чананым мәним.

Симаха, севкили јары гојма көзүндән кәнара,
Мәһәббәтдир чаһ-чәлалым, һәр заман һәјатым мәним.

10.10.2006



# Gözündən kənara qoyma

Eşqinlə nəfəs alıram cismi-natəvanım mənim,
Sənsiz yaşaya bilmərəm, ey sərvi-rəvanım mənim.

Bircə gün görməsəm səni zindana dönər həyatım,
Ucalar göy üzündə naleyi fəryadım mənim.

Hər vüsalı-yar eşqilə alışıb yanan deyiləm,
Yalnız sənsən, bircə sənsən ol şöhrəti-şanım mənim.

Xumar-xumar baxışını dəyişməm dünya varına,
Ləldən, mərcandan artıqsan afəti-cananım mənim.

Simaxa, sevgili yarı qoyma gözündən kənara,
Məhəbbətdir cah-cəlalım, hər zaman həyatım mənim.

10.10.2006



# Јар јолунда

Ешгин илә өмр едәрәм, ешгин илә јашарам,
Чајлар кими чағлајарам, күкрәјәрәм, дашарам.

Дура билмәз габағымда нә Шаһ дағы, нә Гошгар,
Муров дағдан адлајарам, Кәпәзи дә ашарам.

Тәки сәнә әлим чатсын, тәки сәни тапым мән,
Шәнинә дә һәм маһнылар, һәм шеирләр гошарам.

Нечә-нечә дәрјалардан кечиб кәлләм Москинә,
Чамалыны көрән кими севинәрәм, чошарам.

Симаха, гәлбиндәки мәһәббәтә, ешгә бах,
Јар јолунда дүнјаны кәзәрәм, долашарам.

12.12.2006

# Yar yolunda

Eşqin ilə ömr edərəm, eşqin ilə yaşaram,
Çaylar kimi çağlayaram, kükrəyərəm, daşaram.

Dura bilməz qabağımda nə Şah dağı, nə Qoşqar,
Murov dağdan adlayaram, Kəpəzi də aşaram.

Təki sənə əlim çatsın, təki səni tapım mən,
Şəninə də həm mahnılar, həm şeirlər qoşaram.

Neçə-neçə dəryalardan keçib gələm Moskinə,
Camalını görən kimi sevinərəm, coşaram.

Simaxa, qəlbindəki məhəbbətə, eşqə bax,
Yar yolunda dünyanı gəzərəm, dolaşaram.

12.12.2006

# Әманәт галсын

Наз-гәмзә, чәфа сәндә, дөзүм, дәјанәт мәндә,
Ашигә мөhнәт сәндә, севки мәhәббәт мәндә.

Даhа сәнә нә лазым сөјлә тапыб кәтирим,
hәр нә десән көз үстә, ешгә сәдагәт мәндә.

Кәрәм кими дүшәрәм hара кетсән далынча,
Ај јар, тапарам сәни, чанана hөрмәт мәндә.

Москин сәнсиз гүссәли, дәрдли, гәмли көрүнәр,
Гәлбләри шад етмәкчүн сөз мәндә, сөhбәт мәндә.

Гәмү-hичран әлиндән гуртар Симах Шејданы,
Севкилим, мәhәббәтин галсын әманәт мәндә.

12.09.2006



# Əmanət qalsın

Naz-qəmzə, cəfa səndə, dözüm, dəyanət məndə,
Aşiqə möhnət səndə, sevgi məhəbbət məndə.

Daha sənə nə lazım söylə tapıb gətirim,
Hər nə desən göz üstə, eşqə sədaqət məndə.

Kərəm kimi düşərəm hara getsən dalınca,
Ay yar, taparam səni, canana hörmət məndə.

Moskin sənsiz qüssəli, dərdli, qəmli görünər,
Qəlbləri şad etməkçün söz məndə, söhbət məndə.

Qəmü-hicran əlindən qurtar Simax Şeydanı,
Sevgilim, məhəbbətin qalsın əmanət məndə.

12.09.2006



# Шаир

Севкили-јар сөјләдин бир көзү мәстанә, шаир,
Јандын онун ешги илә мәрди-мәрданә, шаир.

Кәл аз вурул назлы-назлы кәлиб-кечән гызлара,
Јанар шамын аловунда бир јол пәрванә, шаир.

Јаз онлардан дүшсүн шерин ағызлара, дилләрә,
Галсын узаг әсрләрә сәндән нишанә, шаир.

Бирисинин бахышлары башдан алыр ағлымы,
Бириси дә едир сәни дәли-диванә, шаир.

Симах Шејда вурғунудур шанлы Азәрбајчанын,
Бир дә никар чәсарәтли афәти-чанә, шаир.

19.09.2006



# Şair

Sevgili-yar söylədin bir gözü məstanə, şair,
Yandın onun eşqi ilə mərdi-mərdanə, şair.

Gəl az vurul nazlı-nazlı gəlib-keçən qızlara,
Yanar şamın alovunda bir yol pərvanə, şair.

Yaz onlardan düşsün şerin ağızlara, dillərə,
Qalsın uzaq əsrlərə səndən nişanə, şair.

Birisinin baxışları başdan alır ağlımı,
Birisi də edir səni dəli-divanə, şair.

Simax Şeyda vurğunudur şanlı Azərbaycanın,
Bir də nigar cəsarətli afəti-canə, şair.

19.09.2006



# Китабын ичиндәкиләр

Шаирлик таледир....................................3
Гәзәлләр....................................20
Көзәлләр....................................22
Гачар мәндән....................................24
Фөвгүнә варма....................................26
Ләби-јар вусаллыјам....................................28
Көзләри јолларададыр....................................30
Мәһәббәт....................................32
Бир јар көрдүм Мүнһендә....................................34
Зөһрә улдузу кими....................................36
Чәкмишәм....................................38
Дурналар....................................40
Јарашыр....................................42
Гәриблик....................................44
Нә олар....................................46
Вәтәнә оғул ол....................................48
Кәнчәнин....................................50
Бәнзәрди....................................52
Ола билмәз....................................54
Истәр....................................56
Шуарым мәним....................................58
Чаванлыг....................................60
Дедиләр....................................62
Аздыр бу күн....................................64
Ашыб-дашсын севинчим....................................66
Көзләри....................................68

Нефтимиз........................................................70
Нејләрәм башга јары..................................72
Данышанда бахышлар...............................74
Бу күн.............................................................76
Булудлар......................................................78
Јохдур ондан гијмәтли..............................80
Ејләмәсин.....................................................82
Олмусан........................................................84
Көнлүмү талады..........................................86
Пәришан-пәришан.......................................88
Отурурам гырагда.......................................90
Бу кәлән јара бахын....................................92
Ешгимиз........................................................94
Бахын............................................................96
Узагларда олсан да дөз.............................98
Кечәл Һәмзә...............................................100
Гашларын...................................................102
Билмирәм....................................................104
Пајызда.......................................................106
Көрдүм........................................................108
Мүнһенин көзләри.....................................110
Алман гызы................................................112
Арзулар.......................................................114
Кәл барышаг..............................................116
А илләр.......................................................118
Чал ашыг....................................................120
Дан ағаранда..............................................122
Мәһәббәтин јолунда..................................124
Ағалар.........................................................126

Дүшсәм дә туфана..................................128
Чәкмә нәзәрини.....................................130
Јарын әлиндән-әлиндән.........................132
Тәзә ил.................................................134
Гурбағанын шаирлији............................136
Билсә олар пәришан..............................138
Галмазсан шамсыз..................................140
Елоғлу...................................................142
Јар әлиндән...........................................144
Бахырсан һејран-һејран..........................146
Чана кәлмишәм.....................................148
А көзләри нәркизим...............................150
Мисри гылынчым мәним.........................152
Һәсрәт чәкирәм.....................................154
Фил дә дөзмәз.......................................156
Олмасын.................................................158
Гәм, гүссә әвәзинә...............................160
Јенә дә јар бәзәниб..............................162
Дүшдү...................................................164
Мүнһени.................................................166
Кечәләр.................................................168
Ачмалыјдым ешгими...............................170
Тәләсирәм.............................................172
Дөзә билмәз..........................................174
Көзәл.....................................................176
Дилгәм руһлу сазам мән........................178
Башла ширин сөһбәтә.............................180
Сығал чәкәр телләрә..............................182
Салыбдыр туфана...................................184

Һә үчүн....................................................186
Үрәјимиз оларды..........................................188
Диллләрдә дастан олум..............................190
Гарабағ......................................................192
Тәрәфә........................................................194
Аз галды ки................................................196
Јар әлиндән...............................................198
Ҝөзүндән кәнара гојма..............................200
Јар јолунда.................................................202
Әманәт галсын............................................204
Шаир.........................................................206

# Kitabın içindəkilər

Şairlik taledir....................13
Qəzəllər....................21
Gözəllər....................23
Qaçar məndən....................25
Fövqünə varma....................27
Ləbi-yar vüsallıyam....................29
Gözləri yollardadır....................31
Məhəbbət....................33
Bir yar gördüm Münhendə....................35
Zöhrə ulduzu kimi....................37
Çəkmişəm....................39
Durnalar....................41
Yaraşır....................43
Qəriblik....................45
Nə olar....................47
Vətənə oğul ol....................49
Gəncənin....................51
Bənzərdi....................53
Ola bilməz....................55
İstər....................57
Şüarım mənim....................59
Cavanlıq....................61
Dedilər....................63
Azdır bu gün....................65
Aşıb-daşsın sevincim....................67

Gözləri....69
Neftimiz....71
Neylərəm başqa yarı....73
Danışanda baxışlar....75
Bu gün....77
Buludlar....79
Yoxdur ondan qiymətli....81
Eyləməsin....83
Olmusan....85
Könlümü taladı....87
Pərişan-pərişan....89
Otururam qıraqda....91
Bu gələn yara baxın....93
Eşqimiz....95
Baxın....97
Uzaqlarda olsan da döz....99
Keçəl Həmzə....101
Qaşların....103
Bilmirəm....105
Payızda....107
Gördüm....109
Münhenin gözləri....111
Alman qızı....113
Arzular....115
Gəl barışaq....117
A illər....119
Çal aşıq....121
Dan ağaranda....123
Məhəbbətin yolunda....125

Ağalar........................................................................127
Düşsəm də tufana...................................................129
Çəkmə nəzərini.........................................................131
Yarın əlindən-əlindən...........................................133
Təzə il........................................................................135
Qurbağanın şairliyi...............................................137
Bilsə olar pərişan...................................................139
Qalmazsan şamsız.................................................141
Eloğlu.........................................................................143
Yar əlindən.................................................................145
Baxırsan heyran-heyran.......................................147
Cana gəlmişəm.........................................................149
A gözləri nərgizim....................................................151
Misri qılıncım mənim...............................................153
Həsrət çəkirəm..........................................................155
Fil də dözməz..............................................................157
Olmasın........................................................................159
Qəm, qüssə əvəzinə...............................................161
Yenə də yar əbəzənib............................................163
Düşdü...........................................................................165
Münheni......................................................................167
Gecələr........................................................................169
Açmalıydım eşqimi..................................................171
Tələsirəm.....................................................................173
Dözə bilməz.................................................................175
Gözəl............................................................................177
Dilqəm ruhlu sazam mən......................................179
Başla şirin söhbətə..................................................181
Sığal çəkər tellərə....................................................183

Salıbdır tufana........................................................185
Nə üçün.................................................................187
Ürəyimiz olardı.........................................................189
Dillərdə dastan olum....................................................191
Qarabağ.................................................................193
Tərəfə..................................................................195
Az qaldı ki.............................................................197
Yar əlindən.............................................................199
Gözündən kənara qoyma...................................................201
Yar yolunda.............................................................203
Əmanət qalsın...........................................................205
Şair....................................................................207

Нәшриҹјатын директору Әлирза Сајылов
**Nəşriyyatın direktoru Əlirza Sayılov**

Симах Шејда
"Мәндән истәр һәр көзәл јар"
Гәзәлләр

Simax Şeyda
"Məndən istər hər gözəl yar"
**Qəzəllər**

Бакы, "Араз" нәшриҹјаты 2007

**Bakı, "Araz" nəşriyyatı 2007**

Компутер тәртибатчысы: Тејмур Мирзәлијев

**Kompüter tərtibatçısı: Teymur Mirzəliyev**

Јығылмаға верилиб: 24.03.2007
Yığılmağa verilib: 24.03.2007
Чапа имзаланыб: 18.06.2007
Çapa imzalanıb: 18.06.2007
Кағыз форматы: 60x84 1//16
Kağız formatı: 60x84 1/16
Шәрти чап вәрәги: 14
Şərti çap vərəqi: 14
Учот нәшр вәрәги: 13.5
Uçot nəşr vərəqi: 13.5
Сифариш: 35
Sifariş: 35
Сайы: 500
Sayı: 500
Гиймәти мүгавилә илә
Qiymәti müqavilə ilə

"Араз" нәшриҹјатынын мәтбәәсиндә чап олунмушдур

**"Araz" nəşriyyatının mətbəəsində çap olunmuşdur**



**Симах Шејданын "Мәндән истәр һәр көзәл јар" гәзәлләр китабы охучулара тәгдим етдији онүчүнчү китабдыр. Бу китаб гәзәлсеверләрә ән көзәл вә дәјәрли һәдијјәдир.**

**Simax Şeydanın "Məndən istər hər gözəl yar" qəzəllər kitabı oxuculara təqdim etdiyi onüçüncü kitabdır. Bu kitab qəzəlsevərlərə ən gözəl və dəyərli hədiyyədir.**